EVDƏ QAL, SAĞLAM QAL!

**Xalqın qayğıkeşi: Prezident İlham Əliyev gerçəkliyinin qürur mücəssəməsi!**



Bax 8

**Sorğu: Azərbaycan vətəndaşlarının 94.5 faizi Prezident İlham Əliyevə inanır və etimad göstərir!**




Bax 5




"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 064 (6029) 18 aprel 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


# İlham Əliyev: "Karantin rejiminin uzadılması yeganə düzgün qərardır"

*Prezident İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirlərinin iştirakı ilə videobağlantı formatında iclas keçirib*



## Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib



Aprelin 17-də Azərbaycan Respublikası Milli Məclisinin yaz sessiyasının növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti...

Bax 11

## "Azərbaycan Prezidenti postpandemiya dövrünün siyasi xəritəsinin ilk çizgisini çəkdi"



Bax 10

*Pandemiya elan olunan dövrdən etibarən - epidemiyanın qloballaşması və dünyəvi mərhələsinin rəsmiləşməsindən sonra dünya yeni psixoloji, iqtisadi və siyasi mərhələyə qədəm qoydu. Beynəlxalq proseslərin idarə olunması ilə məşğul olan mərkəzlər təbii ki, bu prosesin...*



Bax 10

## Putin Qələbə bayramını təxirə saldı

Rusiya Prezidenti Vladimir Putin Sovet İttifaqının İkinci Dünya Müharibəsində faşist Almaniyasının məğlub edilməsinin 75 illiyi ilə əlaqədar keçiriləcək mərasimlərin təxirə salındığını açıqlayıb. SİA bunu xarici mətbuata istinadən xəbər verir.

## Ermənistan diktatorluğun leqallaşmasına doğru...



*"Ermənistan təbliğatına və ümumiyyətlə, Ermənistanın münaqişə ilə bağlı mövqeyinə növbəti böyük zərbə bu yaxınlarda vuruldu. Bu zərbəni, əslində, onlar özləri özlərinə vurdular. Əlbəttə ki, bizim məqsədyönlü fəaliyyətimiz, beynəlxalq təşkilatlarla...*

Bax 12




## Dünyada koronavirusa yoluxanların sayı 2,2 milyona yaxınlaşır

*Öl[illegible]ndə dünyada 76 mindən çox insan koronavirusa yoluxub. Bu, daha əvvəlki günlə müqayisədə 6 min çoxdur. Eləcə də ölənlərin sayı təxminən 8 minə çatıb ki, bu da əvvəlki günün göstəricisindən yüksəkdir.*

Bax 16

**Hafiz Hacıyev: "Əli Kərimli kimi koronavirusdan betər mənəviyyatsızlar qırılsa yaxşıdır"**



Bax 14

**Valideyn himayəsindən məhrum olmuş uşaqlara yaşayış sahələri veriləcək**



Bax 13

**18 Aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür**



Bax 14

# İlham Əliyev: “Karantin rejiminin uzadılması yeganə düzgün qərardır”

## *Prezident İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirlərinin iştirakı ilə videobağlantı formatında iclas keçirib*




***Aprelin 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev və İqtisadiyyat naziri Mikayıl Cabbarovun iştirakı ilə videobağlantı formatında iclas keçirib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı iclasda çıxış edib.***

Prezident İlham Əliyevin çıxışı

-Aprelin 14-də birinci rübün yekunlarını müzakirə edərkən mən bir çox tapşırıqlar verdim. Təbii ki, bu tapşırıqların hamısı yerinə yetirilməlidir və siz tapşırıqların yerinə yetirilməsi ilə əlaqədar mənə müntəzəm olaraq məlumat verməlisiniz. Bu gün əlavə tapşırıqlar veriləcək, çünki pandemiya davam edir. Baxmayaraq ki, Azərbaycanda vəziyyət nəzarət altındadır, biz öz tədbirlərimizi vəziyyətə uyğun şəkildə görməliyik. Bizim üçün prioritet məsələ, - mən bunu qeyd etmişəm, bir daha demək istəyirəm, - insanların sağlamlığıdır, insanların həyatıdır və insanların sosial müdafiəsidir. Eyni zamanda, təbii ki, biz bu şəraitdə iqtisadi sahəyə də daha çox diqqət verməliyik. Çünki hər kəs bilməlidir, əgər güclü iqtisadi imkanlarımız olmasa, biz öz sosial siyasətimizi uğurla apara bilməyəcəyik, xüsusilə pandemiya dövründə ki, bu xəstəlik və bu xəstəlikdən yaranan fəsadlar böyük maliyyə vəsaiti tələb edir. Ona görə bir daha demək istəyirəm, bu pandemiya dövründə bizim üçün əsas prioritetlər insanların sağlamlığı, onların sosial müdafiəsi və vəziyyətə uyğun şəkildə iqtisadi fəallığın artmasıdır.

Hər kəs bilməlidir ki, bu böyük bəla bütün dünyanı böyük sınaq qarşısında qoyubdur. Bu günə qədər dünyada 140 mindən çox insan həyatını itirib və bu xəstəlik sərhədlər tanımır. Əgər ilkin mərhələdə bu xəstəlik Azərbaycana xaricdən gətirilibsə, hazırda daxili yoluxma prosesi gedir. Ancaq bildirməliyəm ki, sərt və qabaqlayıcı tədbirlər nəticəsində biz bu vəziyyəti nəzarət altında saxlaya bilirik. Son üç-dörd günün statistikası müəyyən mənada nikbinlik üçün əsas yaradır. Bildirməliyəm ki, son günlərdə yoluxanların sayı ilə sağalanların sayı arasında dinamika artıq müsbətdir. Yəni, daha çox insan sağalır, nəinki bu xəstəliyə yoluxur.

Bunun başlıca səbəbi görülmüş tədbirlərdir. Mən bunu bir daha demək istəyirəm, əgər biz vaxtında qabaqlayıcı tədbirlər görməsəydik, bu gün Azərbaycanda xəstələrin sayı min yox, bəlkə on min, iyirmi min, bəlkə də daha çox olardı. Biz indi inkişaf etmiş ölkələrin təcrübəsini görürük. Bu ölkələrdə səhiyyə sistemi bir çox ölkələr üçün həmişə nümunə olub. Amma demək olar ki, böyük imkanlara malik ölkələrin səhiyyə sistemi böhran içindədir. Bu da təbiidir. Çünki xəstəliyin yayılma sürəti o qədər genişdir, xəstəlik o qədər tez yayılır ki, heç bir ölkənin səhiyyə sistemi buna davam gətirə bilməz, o cümlədən Azərbaycanın. Ona görə bizim əsas məqsədimiz yoluxma hallarında müşahidə olunan artımın qabağını almaq idi, yoluxma zəncirini qırmaq idi. Görülmüş bütün tədbirlər bu məqsədi güdürdü ki, biz bu vəziyyətdən az itkilərlə çıxaq, vətəndaşlara kömək göstərək, onları bu bəladan qoruyaq və onların sosial müdafiəsini təmin edək. Bu günə qədər həm məhdudlaşdırıcı tədbirlərin görülməsi, bu tədbirlərin mərhələ-mərhələ sərtləşdirilməsi, eyni zamanda, pandemiyadan ziyan çəkmiş sahələrdə çalışan insanların sosial müdafiəsinin təmin edilməsi hesab edirəm ki, bizim düzgün siyasətimizi əks etdirir. Çünki bir daha demək istəyirəm ki, son üç-dörd gün ərzində müsbət dinamika var. Ancaq biz bundan sonra da vəziyyəti nəzarətdə saxlayacağıq, görək ki, bu dinamika nə qədər çəkəcək, bu, davamlıdır, yoxsa yox və hansı əlavə tədbirlər görülməlidir. Çünki dünya böyük çağırışla üzləşib və biz görürük ki, bir çox hallarda ölkələr bu bəla ilə təkbaşına mübarizə aparır.

Azərbaycan, əlbəttə, dünya birliyinin məsuliyyətli və etibarlı üzvü kimi bu sahədə həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə həmrəyliyin gücləndirilməsi üçün çox önəmli addımlar atmışdır. Deyə bilərəm ki, ölkəmizdə milli həmrəylik bu günə qədər müşahidə edilməyən dərəcədə artıb. Bu, bir daha bizim xalqımızın böyüklüyünü göstərir. Göstərir ki, biz xalq olaraq, dövlət olaraq çətin günlərdə maksimum həmrəylik nümayiş etdiririk, bir-birimizə kömək edirik, xüsusilə aztəminatlı ailələrə kömək göstəririk. Təbii ki, ilk növbədə, dövlət, eyni zamanda, sahibkarlar, ictimai təşkilatlar, ayrı-ayrı şəxslər - biz xalqımıza xas olan ən ülvi xüsusiyyətləri bir daha nümayiş etdiririk.

Bildiyiniz kimi, Azərbaycanın hazırda sədrlik etdiyi Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası dünya miqyasında ilk təşkilat idi ki, Zirvə görüşünü videokonfrans şəklində keçirib. Bu Zirvə görüşü bir daha bizim həmrəyliyimizi, birliyimizi göstərmişdir. Göstərmişdir ki, biz ağır günlərdə bir-birimizin yanındayıq.

Son günlər ərzində mənə ünvanlanan minlərlə məktub göstərir ki, Azərbaycan xalqı dövlət tərəfindən görülmüş işlərə çox böyük qiymət verir. Əlbəttə ki, bu, bizi daha da ruhlandırır. Bu, onu göstərir ki, baxmayaraq insanların həyatı çətinləşib, normal həyata müdaxilə edən karantin rejimi bir çoxları üçün problemlər yaradıb, yenə də xalqımızın böyük əksəriyyəti bu vəziyyəti dərk edərək dövlətə öz dəstəyini göstərməkdədir. Biz isə bundan sonra da bu bəla ilə mübarizədə fəal olmalıyıq, qabaqlayıcı tədbirlər görməliyik və elə etməliyik ki, bu ağır vəziyyətdən az itkilərlə çıxa bilək.

Karantin rejiminə gəldikdə, bildiyiniz kimi, karantin rejimi aprelin 20-nə qədər nəzərdə tutulurdu. Ancaq mütəxəssislərin vahid fikrinə görə, karantin rejimi uzadılmalıdır. Mən hesab edirəm ki, bu, düzgün addım olacaqdır. Çünki müsbət dinamika hələ ki, ilk təzahürlərini göstərməkdədir. Biz bu dinamikanı dayanıqlı etməliyik. Ona görə hesab edirəm ki, Operativ Qərargah yaxın vaxtlarda bu məsələ ilə bağlı məlumat verəcək. Hesab edirəm ki, karantin rejiminin uzadılması yeganə düzgün qərardır.

Bunu nəzərə alaraq, biz əlbəttə ki, insanların sosial müdafiəsini daha da gücləndirməliyik. Azərbaycan xalqı yaxşı bilir ki, biz dərhal bu məsələ ilə ciddi məşğul olmağa başlamışıq. Pandemiyadan ən çox zərər çəkən sahələrdə işləyən insanların əməkhaqlarının əhəmiyyətli hissəsi dövlət tərəfindən qarşılanır. Bu kateqoriyaya aid olan insanların sayı 300 mindən çoxdur. Eyni zamanda, 300 minə yaxın mikrosahibkarın maliyyə vəziyyətinin təmin edilməsi üçün dövlət böyük maliyyə vəsaiti ayırıb. Beləliklə, ancaq bu kateqoriyalara aid olan 600 minə yaxın insan dövlətdən maddi dəstək alır. Dövlət sektorunda işləyənlərin əməkhaqları tam ödənilir. Hazırda bir milyona yaxın insanın böyük əksəriyyəti işləmir, ancaq dövlət onların maaşını verir. Yəni, bu, bir daha Azərbaycan dövlətinin humanist mahiyyətini göstərir. Onu göstərir ki, - mən bunu dəfələrlə demişəm, hələ koronavirusdan daha əvvəl demişəm, - bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bugünkü ağır vəziyyət bir daha onu göstərir ki, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur, nəyi bəyan ediriksə, onu da edirik.

Ancaq nəzərə alsaq ki, karantin rejimi uzadılacaq və karantin rejimindən çıxış da gərək bəri-başdan planlaşdırılsın. Sizə də bu məsələ ilə bağlı müvafiq göstərişlər verirəm ki, biz karantin rejimini mərhələli yollarla sərtləşdirmişdik və bu rejimi eyni qaydada - mərhələli yollarla yumşaltmalıyıq. Bu, hansı formada olacaq? Gərək bu məsələ üzərində hökumət və o cümlədən nazirliklər işləsin, təkliflər versin. Yumşalma hansı sahələrdən başlamalıdır, biz indidən bunu planlaşdırmalıyıq. Çünki ümid edirəm, hətta uzadılmış karantin rejimi dövründə müəyyən yumşalma istisna deyil. Amma yenə də biz addımlarımızı vəziyyətə uyğun şəkildə atmalıyıq.

Əlbəttə, məni indiki vəziyyətlə bağlı ən çox narahat edən insanların sağlamlığıdır. Bizim həkimlərimiz insanlara kömək göstərmək üçün əllərindən gələni edirlər. Bildiyiniz kimi, bizim səhiyyə sistemimiz böyük sınaq qarşısındadır. Səhiyyə sistemimizin çökməməsi, ilk növbədə, onunla bağlıdır ki, biz xəstəliyin yayılma sürətini nəzarət altında saxlaya bildik. Əgər bu, nəzarətdən çıxsaydı, bizim səhiyyə sistemimiz buna davam gətirə bilməzdi. Bu gün inkişaf etmiş bəzi ölkələrin, - indi oradakı vəziyyət televiziya və internet resurslarında göstərilir, - insanları ümumiyyətlə müalicə etmək imkanı yoxdur. Bəzi xəstələr dəhlizlərdə yerləşdirilir, yerə uzadılır, uzanıblar yerlərdə və sadəcə olaraq, xəstəxana binasında qalırlar. Ən inkişaf etmiş ölkələrdə yüzlərlə, bəzi hallarda mindən çox insan vəfat edir. Nəyə görə? Sadəcə olaraq, səhiyyə sistemi buna davam gətirə bilmir, xəstəxanalarda yer yoxdur, bəzi hallarda lazım olan avadanlıq çatışmır. Əgər bu ölkələrin səhiyyə sistemi normal fəaliyyət göstərsəydi, o insanların böyük əksəriyyətinin həyatını xilas etmək olardı.

*Ardı Səh. 3*

# İlham Əliyev: “Karantin rejiminin uzadılması yeganə düzgün qərardır”

## *Prezident İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirlərinin iştirakı ilə videobağlantı formatında iclas keçirib*

*“Bizim üçün prioritet məsələ, - mən bunu qeyd etmişəm, bir daha demək istəyirəm, - insanların sağlamlığıdır, insanların həyatıdır və insanların sosial müdafiəsidir”*

Əvvəli-Səh-2

Bizim səhiyyə sistemimiz son illərdə böyük inkişaf yolu keçibdir və bu gün 20-dən çox dövlət xəstəxanasında koronavirus xəstələri müalicə olunur. Bu xəstəxanaların mütləq əksəriyyəti son 16 il ərzində tikilibdir. O cümlədən 575 çarpayılıq “Yeni klinika” bu gün ölkəmizin ən müasir səhiyyə ocağıdır və indi orada 100-dən çox xəstə müalicə alır. Eyni zamanda, Azərbaycan Tibb Universitetinin vaxtilə mənim təşəbbüsümlə tikilmiş Tədris-Terapevtik və Cərrahiyyə klinikalarında da bir çox xəstə müalicə alır. Son illər ərzində bölgələrdə inşa edilmiş mərkəzi rayon xəstəxanalarında bir çox xəstələr müalicə alır. O cümlədən bu ilin mart ayında Goranboy, Qazax, Şəmkir şəhərlərində açılan 3 yeni xəstəxanada xəstələr müalicə alır, orada da 500 çarpayı imkanı vardır. Yəni, mindən çox çarpayı ancaq mart ayında istifadəyə verilibdir. Mənim göstərişimlə hazırda ölkəmizdə modul tipli 10 xəstəxana inşa edilməkdədir. Hesab edirəm ki, bu xəstəxanalar işə düşəndən sonra yaxın 1-2 ay ərzində orada da 2 min əlavə çarpayı istifadəyə veriləcək.

Yəni, biz bütün hazırlıq işlərini görürük. Biz indi həkimlərimizin peşəkarlığını əyani şəkildə görürük. Sirr deyil ki, səhiyyə işçilərinin fəaliyyətinə bəzi hallarda tənqidi yanaşmalar da müşahidə olunurdu. Sanki Azərbaycanın səhiyyə sistemi bərbad vəziyyətdədir, Azərbaycanda xəstələrə lazımi müalicə göstərilmir, imkanlı xəstələr xaricə üz tuturlar. Bəli, belə hallar var, təkcə Azərbaycanda yox, bizdən qat-qat zəngin olan ölkələrdən də imkanlı adamlar Avropanın, Amerikanın aparıcı klinikalarında müalicə alırlar. Bu, dünya praktikasıdır. Ancaq bu gün biz yalnız öz imkanlarımıza arxalanırıq. Bizim səhiyyə sistemimiz ancaq Azərbaycan həkimləri tərəfindən dövlət dəstəyi ilə inkişaf edir. Bu gün Azərbaycanda ən mürəkkəb əməliyyatların keçirilməsi, koronavirusla bağlı müxtəlif müayinələrin aparılması, 18 laboratoriyamız - bütün bunlar bizim gücümüzü artırır. Yəni, bu gün tam əmin ola bilərik ki, bizim səhiyyə imkanlarımız və həkimlərin peşəkarlığı lazımi səviyyədədir. Göstərdikləri fədakarlığa, qəhrəmanlığa görə həkimlərə bir daha təşəkkürümü bildirirəm. Ona görə mən tam əminəm ki, karantin rejiminin uzadılması nəticəsində biz müsbət dinamikanı gücləndirə bilərik.

Bununla əlaqədar əlbəttə ki, biz aztəminatlı ailələrin problemlərini daha geniş şəkildə həll etməliyik. Bu günə qədər biz nəzərdə tuturduq ki, karantin rejimi aprelin 20-dək davam edəcək, ancaq indi uzadılacaq. Yardım üçün müraciət edənlərin sayı kifayət qədər artmışdır. İndi bu təkliflər, bu sifarişlər geniş təhlil olunur və maksimum şəffaflıq təmin edilməlidir. İlkin mərhələdə nəzərdə tuturdu ki, 200 min insan dövlətdən 190 manat yardım alacaqdır. Mən hesab edirəm ki, ümumi vəziyyəti nəzərə alaraq və insanların sosial müdafiəsini gücləndirmək üçün bu kateqoriyaya aid olan insanların sayını biz 600 minə çatdırmalıyıq. Yəni, 200 min əvəzinə, 600 min insana dövlət iki ay ərzində hər ay 190 manat vəsait verməlidir. Bu kateqoriyaya aid olan insanlar aztəminatlı təbəqənin nümayəndələridir, eyni zamanda, koronavirusla bağlı işini itirən və qeyri-formal məşğulluqla məşğul olan insanlardır. Onların da problemlərini dövlət öz üzərinə götürür. Baxmayaraq, mən dəfələrlə onlara müraciət etmişəm ki, qeyri-formal məşğulluğa son qoyun, çünki bu, sizin üçün problem yaradacaq. Siz işsizlikdən sığorta, işsizlik müavinəti, pensiya, tibbi sığorta ala bilməyəcəksiniz. Son vaxtlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi və digər aidiyyəti qurumların fəaliyyəti nəticəsində on minlərlə yeni əmək müqaviləsi bağlanıldı. Mən ümid edirəm ki, bu ağır vəziyyətdən sonra bunu nəzərə alaraq bu gün hələ də kölgə iqtisadiyyatında çalışan insanlar da dərk edəcəklər ki, yeganə çıxış yolu kölgə iqtisadiyyatından çıxmaqdır. Sahibkarlara müraciət edirəm, qeyri-formal məşğulluğa son qoyun. İşçilərə müraciət edirəm bir daha, əmək müqaviləsi olmadan işləməyin, tələb edin. Əgər hansısa sahibkar sizinlə əmək müqaviləsi bağlamaq istəmirsə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, İqtisadiyyat Nazirliyinə, Prezident Administrasiyasına dərhal məlumat verin. Biz o sahibkarların dərsini verəcəyik. Çünki dövlətin bütün resurslarını səfərbər etdiyi indiki şəraitdə dövləti aldatmaq, vergilərdən yayınmaq və öz maddi marağını, öz tamahını təmin etmək xəyanətdir. Bunun başqa adı ola bilməz. Ona görə tapşırıq verirəm ki, aprel-may aylarında - iki ay ərzində 600 min insan dövlətdən ayda 190 manat alsın. Bu vəsaiti alacaq vətəndaşlardan xahiş edirəm ki, onlar ikinci ödənişi almaq üçün bank hesabları açsınlar. Birinci ödəniş bu ay veriləcək, ona görə yəqin bəzi insanların imkanı olmayacaq ki, bank hesabları açsınlar. Ancaq ikinci ödəniş may ayında veriləcək. O vaxta qədər bu 600 min insanın hər biri bank hesabı açsın və ikinci ödənişi bank köçürmə yolu ilə alsın. Bu, bizim xahişimizdir, bu, bizim tələbimizdir.

Ona görə bu məsələ ilə bağlı indi sizin nazirlik qarşısında çox ciddi vəzifələr durur. Siz qısa müddət ərzində bu ödənişləri təmin etməlisiniz. Sual vermək istərdim Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinə, indi ayın sonuna 13 gün vaxt qalıb, 600 min insana bu ödənişlər nə dərəcədə operativ şəkildə edilə bilər və gündə neçə min insana bu ödənişlər verilə bilər? Məlumat verin.

Nazir Sahib Babayev:

-Möhtərəm cənab Prezident, Sizin təşəbbüsünüzlə təsdiq edilmiş Tədbirlər Planı çərçivəsində işsiz şəxslərə, xüsusi karantin rejiminə görə iş yerini itirmiş qeyri-formal işləyən şəxslərə, habelə qeyd etdiyiniz kimi, aztəminatlı ailədən olan insanlara dəstək mexanizmi artıq aprelin 7-də Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq olunub. Aprelin 9-dan biz ödənişlərə başlamışıq. İlk vaxtlar hər gün 10 min insana ödəniş köçürülürdüsə, artıq son günlər biz bu rəqəmi 20-25 minə çatdıra bilmişik. Dünən axşamadək artıq 140 min insana ödəniş edilibdir. Bugünkü plana əsasən əlavə 25 min insana ödəniş ediləcəkdir. Biz Sizin tapşırığınıza əsasən ayın sonuna qədər gündəlik rəqəmi 25-30 minə çatdırmağa çalışarıq ki, maksimum sürətlə icra olunsun, aprelin sonu, mayın əvvəllərində artıq 600 min insanın hər biri bu vəsaiti alsın. Əsas sual, eyni zamanda, vətəndaşlarımızın bu vəsaiti götürməsi ilə bağlıdır. Çünki bir gündə ödəniş həddən artıq çox olanda istənilən şəkildə vətəndaşların müraciəti və sıxlığı yarana bilər bizim bank şöbələrimizdə, poçt şöbələrimizdə. Ona görə biz onu da Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birgə tənzimləməyə çalışdıq və əsas yük poçt şöbələrimizin üzərinə düşür. Onlar da həqiqətən bu günədək bu missiyanı çox uğurla icra edirlər. Amma biz düşünürük ki, ən geci mayın ilk həftəsində bütün ödənişlər yekunlaşacaqdır. Sizin tapşırığınıza uyğun olaraq ikinci ödənişin böyük bir hissəsi köçürmə yolu ilə həyata keçirilsə, əlbəttə ki, daha sürətlə icra ediləcəkdir.

Prezident İlham Əliyev: Yaxşı. Onda birinci ödənişi alan vətəndaşlara bir daha tövsiyə olunmalıdır ki, bank hesabları açsınlar. Bizim banklara da indi müraciət edirəm ki, onlar, - düzdür, bu, böyük iş tələb edir, - burada maksimum operativlik göstərsinlər. Çünki əgər 600 min insanın hamısı bank hesabı açarsa, - biz bunu istəyirik, tövsiyə edirik, - bu, əlbəttə ki, müəyyən problemlər yarada bilər. Ona görə bank sektoru da buna hazır olmalıdır. Beləliklə, bundan sonra artıq həmin insanlar öz maaşlarını köçürmə yolu ilə alacaqlar, şəffaf şəkildə alacaqlar və öz vətəndaşlıq borcunu yerinə yetirmiş olacaqlar. Çünki bu, ən düzgün yoldur. Bu məsələ ilə, yəni, görüləcək əlavə işlərlə bağlı sizin başqa sözünüz var?

Nazir Sahil Babayev: Möhtərəm cənab Prezident, işsiz və qeyri-formal məşğul insanlar, xüsusi karantin rejimində iş yerini itirmiş insanlar ilə bağlı bir sıra digər proqramlar da var - Sizin təşəbbüsünüzlə elan edilən haqqı ödənilən ictimai iş yerləri proqramı. Bu proqramın əhəmiyyətli dərəcə artırılmasını tapşırmışdınız və əlavə 50 min ictimai iş yerinin yaradılması nəzərdə tutulmuşdur. Bu proqramın da icrasına artıq başlanıbdır. Məruzə edirəm ki, bu günədək 5 min işsiz şəxs artıq bu işlərə cəlb edilibdir, onlarla əmək müqavilələri yekun imzalanma mərhələsindədir. Biz bunu da 10 gün ərzində tam şəkildə icra etməyə çalışacağıq. Cənab Prezident, digər bir proqram özünüməşğulluq proqramıdır. Sizin tapşırıqlarınıza uyğun olaraq özünüməşğulluq proqramına həm Dünya Bankı cəlb edilibdir, həm də Azərbaycan bankları artıq fəal şəkildə qoşulubdur. Bu il biz 12 min ailə üçün mikro-təsərrüfatın yaradılmasını planlaşdırırıq. İşsizlərlə bağlı bu qədər, cənab Prezident.

Prezident İlham Əliyev: Çox yaxşı. Ödənişli ictimai iş yerlərinin açılması ilə bağlı əvvəlki illərin təcrübəsinə əsaslanaraq, biz ilin əvvəlində 37 min iş yerinin açılmasını nəzərdə tuturduq. Onu da bildirməliyəm ki, artıq bu proqram 3-4 ildir həyata keçirilir. Artıq bəzi insanlar, hansılar ki, ilkin mərhələdə bu işlərə cəlb edilmişdilər, sonra daha da yüksək maaş imkanına malik başqa iş yerlərinə keçdilər. Ona görə biz bu proqramı təqribən 30-40 min ətrafında nəzərdə tuturduq. Ancaq pandemiyaya görə və işsizliyin açılmaz artımını nəzərə alaraq mən göstəriş vermişdim ki, biz ilkin mərhələdə bu rəqəmi 50 minə çatdıraq. Amma indi hesab edirəm ki, biz daha böyük rəqəmə çatmalıyıq və bu il 90 min ödənişli ictimai iş yeri yaradılmalıdır. Bu sahəyə də çox ciddi nəzarət olmalıdır. Bu məsələ ilə bağlı biz sizinlə əvvəllər də danışmışıq. İndi mexanizm daha şəffafdır. Çünki əfsuslar olsun ki, ilkin mərhələdə burada nəzarət sıfır səviyyəsində idi və bir çox hallarda yerli icra orqanları bundan sui-istifadə edərək, aztəminatlı təbəqə üçün nəzərdə tutulmuş vəsaiti də mənimsəyirdilər. Bu, vicdansızlığın zirvəsidir. Məhz buna və digər cinayətlərə görə artıq 3 icra başçısı həbs olunub və onların çirkin əməlləri sənədləşdirilib, ictimaiyyətə təqdim edilib. Onlar özlərini, öz əcdadlarını biabır ediblər, öz yaxınlarına, dövlətə böyük ziyan vurublar. Biz bu vəsaiti ayırırdıq ki, iş tapa bilməyən, yaxud da iş qabiliyyəti yüksək olmayan insanlar heç olmasa minimum əməkhaqqı səviyyəsində əməkhaqqı alsın, evinə çörəkpulu aparsın. Nəzərə alsaq ki, biz minimum əməkhaqqını 250 manata qaldırdıq, ancaq onu da mənimsəyib, kartları özündə saxlayıb, kartlardan pul çəkib varlanırdılar. Bu, həm cinayətdir, həm də mənəvi eybəcərlikdir. Buna başqa ad vermək olmaz. Ona görə bütün aidiyyəti orqanlar bundan sonra bu məsələyə çox böyük diqqət verməlidirlər. Mən vətəndaşlardan da xahiş edirəm, kimin ki, adı bəlkə indi də yazdırılır və əməkhaqqı almır, onlar da bu məlumatı bizə versinlər. Beləliklə, biz 90 min işsizi ictimai işlərlə təmin edəcəyik.

Özünüməşğulluq proqramına gəldikdə, biz keçən dəfə də bu məsələ ilə bağlı danışmışıq. Hesab edirəm ki, 12 min insanı bu il bu proqrama cəlb etməyimiz çox yaxşı rəqəmdir. Bizim təşəbbüsümüzlə həm Dünya Bankı bu proqrama qoşulub, həm də Azərbaycan bankları ilk dəfədir ki, bu proqrama qoşulur. Ümid edirəm, Azərbaycan bankları gələn il bu kateqoriyadan olan daha çox sayda insana kömək göstərəcəklər.

Bir də mən sizə tapşırmışdım ki, ünvanlı sosial yardımı alanların sayı artırılsın. Son müddət ərzində bu sahədə vəziyyət və artım dinamikası necədir?

Nazir Sahil Babayev:

-Möhtərəm cənab Prezident, artıq 80 min ailə, 330 mindən çox fərd ünvanlı sosial yardım proqramı ilə əhatə olunubdur. Aprelin 1-i ilə müqayisədə artım 10 min ailədir və ya 36 min şəxsdir. Bu dinamika da Sizin tapşırığınıza uyğun olaraq mütəmadi şəkildə artırılacaq. Ünvanlı yardım bizim aztəminatlı ailələrimizə önəmli bir dəstək mexanizmi kimi yenə də Sizin təşəbbüsünüzlə icra ediləcəkdir.

Ardı Səh. 4

# İlham Əliyev: “Karantin rejiminin uzadılması yeganə düzgün qərardır”

## *Prezident İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirlərinin iştirakı ilə videobağlantı formatında iclas keçirib*

**Əvvəli-Səh-4**

Prezident İlham Əliyev: Çox yaxşı. Eyni zamanda, ayın 14-də keçirilmiş müşavirədə mən bildirdim ki, şəhid ailələrinə nəzərdə tutulmuş evlərin təmin edilməsi həyata keçirilsin. Siz də bu məsələ ilə bağlı məlumat verdiniz. Əlbəttə ki, indi karantin rejiminə görə kütləvi tədbirlər keçirilə bilməz. Ancaq bilməliyik ki, biz ilin sonuna qədər müəyyən edilmiş rəqəmə çatmalıyıq, 1500 şəhid ailəsi bu yardımdan faydalanacaq. Belə olan halda növbədə daha nə qədər ailə qalacaq? Bu barədə məlumat verin.

Nazir Sahil Babayev: Möhtərəm cənab Prezident, 2014-cü ildə proqramın ilkin icrasına başlanan zaman, yəni, 2014-cü il yanvarın 1-nə qədər növbədə olan şəxslərdən artıq bu ilin sonuna cəmi 1500 nəfər qalacaqdır.

Prezident İlham Əliyev: Yəni, bu il 1500 ailə təmin olunandan sonra hələ də 1500 qalacaq. Yəqin ki, biz 1-2 ilə bu məsələni də həll edə bilərik. Beləliklə, bu kateqoriyadan olan bütün insanlara dövlət tərəfindən mənzillərin verilməsi proqramı başa çata bilər.

Eyni zamanda, DOST mərkəzlərinin tikintisi ilə bağlı maraqlanmaq istərdim. Düzdür, indiki şəraitdə bu mərkəzlər fəaliyyət göstərmir. Ancaq bizim proqramımızda bu il bir neçə mərkəzin tikintisi nəzərdə tutulurdu. Karantin rejimi başa çatandan sonra bu mərkəzlər mütləq fəaliyyətə başlamalıdır. Bu sahədə hansı işlər görülüb? Çünki mən iki mərkəzin açılışında iştirak etmişəm. Ondan əlavə, neçə mərkəzin tikintisi nəzərdə tutulub bu il və hazırdırmı, yoxsa yox?

Nazir Sahil Babayev: Möhtərəm cənab Prezident, bu il əlavə 7 mərkəzin tikilməsi üzərində iş aparılır. Onların dördünün bu il açılması nəzərdə tutulurdu və biri artıq hazırdır. Bu, Nizami, Suraxanı və Sabunçu rayonlarını əhatə edən 3 saylı DOST mərkəzidir. Biz onu açılış üçün tam şəkildə hazırlamışıq, xüsusi karantin rejimi bitən kimi fəaliyyətə başlayacaq. Həmin mərkəzimiz gündəlik əsasda təqribən 700 insan qəbul edə biləcək və ən həssas kateqoriyadan olan insanlarımıza dəstək verəcək. Digər mərkəzlərimiz Sumqayıt şəhərində, Abşeron, Bərdə, Quba və Şəki rayonlarında planlaşdırılır. Onların da hər birinin üzərində müvafiq işlər aparılır. İnşallah, bu mərkəzlərin tikintisi sürətli şəkildə yekunlaşdırıldıqca Sizə məruzə ediləcək.

Prezident İlham Əliyev: Yaxşı. İndi biz iqtisadi sahə ilə bağlı, əlbəttə, öz addımlarımızı elə atmalıyıq ki, hazırkı çətin şəraitdə iqtisadi fəallığı müəyyən mənada qoruyub saxlayaq. Hər kəs yaxşı bilir ki, demək olar bütün ölkələr indi pandemiya ilə əlaqədar öz sərhədlərini bağlayıblar, ancaq ticarət və yük daşımaları sahəsində işlər davam edir. Düzdür, indi ticarət obyektləri bağlı olduğu üçün burada tənəzzül var. Yükdaşımalarda isə vəziyyət nisbətən normaldır. Əlbəttə ki, iqtisadi sahədə apardığımız siyasət və iqtisadi sabitlik pandemiyaya qarşı mübarizədə bizə əlavə imkanlar yaradır. Bu ilin 3 ayının yekunları haqqında biz üç gün bundan əvvəl danışdıq, təkrar etmək istəmirəm. Hələ ki, müsbət dinamika var. Ancaq istisna olunmur ki, aprel, may, iyun aylarında tənəzzül müşahidə ediləcək. Çünki biz iki ayın yekunlarını üç ayın yekunları ilə müqayisə edəndə görürük ki, həm ümumi daxili məhsulda azalma var, eyni zamanda, qeyri-neft sektorunda tənəzzül var. Baxmayaraq, hələ ki, biz artımı görürük, ancaq növbəti aylarda necə olacaq, əlbəttə, bu da karantin rejiminin nə vaxta qədər davam etməsinə bağlıdır. Ancaq eyni zamanda, nəzərə alın ki, karantin rejimi hələ müəyyən qədər davam edəcək. Karantin rejimi çərçivəsində biz hansı əlavə addımları atmalıyıq ki, iqtisadi fəallığı, heç olmasa müəyyən dərəcədə qoruyaq və karantin rejimi başa çatandan sonra vaxt itirmədən iqtisadi fəallığı artıraq. Ona görə mən deyəndə ki, biz karantin rejimindən mərhələli yollarla çıxmalıyıq, bu, eyni zamanda, bizim iqtisadi sahəyə də aiddir. Çünki bu sahədə də sizdə artıq prioritetlər olmalıdır. Hətta mən bir daha demək istəyirəm, istisna edilmir ki, aprelin 20-dən sonra uzadılacaq karantin rejimi çərçivəsində belə biz müəyyən sahələri aça bilərik. Çünki biz indi dünya praktikasına da baxırıq, artıq bir neçə ölkədə, o cümlədən inkişaf etmiş ölkələrdə belə təşəbbüslər irəli sürülür. Ona görə ki, bu karantin rejimi hər bir ölkənin iqtisadiyyatına çox mənfi təsir göstərir və bu təsir nə qədər davam edəcək, biz bunu deyə bilmərik. Ona görə biz addımlarımızı elə atmalıyıq ki, bu müddət ərzində postkarantin rejiminə daha hazırlıqlı olaq. Hesab edirəm ki, bayaq qeyd etdiyim məsələlər öz müsbət həllini taparsa, qeyri-formal məşğulluq karantin rejimindən sonra təbii olaraq düşəcək. Çünki bu müddət ərzində on minlərlə əmək müqaviləsi bağlanmışdır və bu gün qeyri-formal sahədə işləyənlər artıq görəcəklər ki, yeganə çıxış yolu kölgə iqtisadiyyatından çıxmaqdır. Əlbəttə, qeyd etdiyim kimi, indiki şərait bundan sonra iqtisadi sahədə qanunları pozmaq istəyənlərin üzərinə çox böyük mənəvi yük qoyacaqdır. Çünki bir daha demək istəyirəm ki, indiki şəraitdə dövləti aldatmaq cəhdləri xəyanətə bərabər tutulacaqdır. Ona görə siz sahibkarlarla müntəzəm əlaqə saxlayın, o cümlədən maarifləndirmə, onların vicdanla fəaliyyət göstərməsi ilə əlaqədar mütləq təmasları davam etdirin. Bir daha onlara göstərilməlidir ki, dövlət nə qədər böyük yükü öz üzərinə götürüb. Mən indi Azərbaycanı heç kimlə müqayisə eləmək istəmirəm, amma baxın görün, bu pandemiya dan zərər çəkmiş sahələrdə işləyənlərin əməkhaqqı dövlət tərəfindən ödənilir, 300 min adamdır, az deyil. Mikrosahibkarların da sayı 300 minə yaxındır, onlara da dövlət tərəfindən vəsait ödənilir. İndi vergi güzəştləri, vergi tətilləri ilə bağlı mən göstəriş vermişəm və istəyirəm ki, siz bu məsələ ilə bağlı məlumat verəsiniz, hansı tədbirlər hazırlanıb və bu paket Milli Məclisə nə vaxt təqdim ediləcək.

İqtisadiyyat naziri Mikayıl Cabbarov dedi:

-Təşəkkür edirəm, möhtərəm cənab Prezident. İlk növbədə, onu vurğulamaq istərdim ki, Sizin iki tapşırığınıza uyğun olaraq biz bütün işləri planlaşdırıb həyata keçiririk. Birincisi, ilk növbədə, mövcud olan iqtisadi strukturu və məşğulluğu qorumaqdır. İkincisi, yeni şəraitdə fəaliyyəti təmin etməkdir.

Operativ məlumat olaraq diqqətinizə məruzə etmək istərdim ki, pandemiyadan zərər çəkmiş müəssisələrə və fərdi, o cümlədən mikrosahibkarlara dövlətin maliyyə dəstəyinin çatdırılması prosesi uğurla gedir, proses onlayn keçirilir. İzahedici videoçarxlar, “Qaynar xətt” fəaliyyət göstərir. Bu günə olan rəqəmlər bundan ibarətdir ki, artıq 11 min 567 vergiödəyicisinə - toplam sayda 123 min 343 nəfər muzdlu işçisi olan müəssisələrə və 22 min 949 fərdi sahibkara Maliyyə Nazirliyi və agent banklar vasitəsilə maliyyə dəstəyi göstərilib.

İkinci tapşırığınıza uyğun olaraq Vergi Məcəlləsinə dəyişikliklər paketi hazırlanıb. O, aşağıdakı hissələrdən ibarətdir və bütün dövlət qurumları ilə razılaşdırılıb. Birincisi, pandemiyanın bilavasitə təsir etdiyi fəaliyyət sahələri üzrə vergiödəyicilərinə 2021-ci il yanvarın 1-dək olan dövr üzrə bir sıra vergi güzəştləri və vergi tətilləri təklif olunub. Burada əmlak və torpaq vergiləri üzrə tam məbləğdə vergi güzəştlərinin verilməsi, əldə edilən mənfəətin, gəlirin 75 faiz miqdarında vergi güzəşti kimi, fiziki şəxslərdən daşınmaz əmlakın icarəsi üzrə ödəmə mənbəyində tutulan verginin dərəcələrinin 50 faiz, yəni, 14 faizdən 7 faizə endirilməsi, ictimai iaşə və ölkədaxili sərnişindaşıma fəaliyyəti üzrə sadələşdirilmiş vergi məbləğinə 50 faiz güzəştin verilməsi və digər tədbirlər.

İkinci istiqamət, mikrosahibkarlıq subyektlərinə 2020-ci il yanvarın 1-dən 2021-ci il yanvarın 1-dək sadələşdirilmiş vergi üzrə 50 faiz vergi güzəştinin, yəni, 2 faiz dövriyyədən 1 faiz dövriyyəyə endirilməsi, həmçinin vergilərin, cari vergiödəmələrin hesablanması və ödənilməsi üzrə vergi tətillərinin verilməsi.

Nəhayət, üçüncü istiqamət, bütün sahibkarlıq subyektlərinə şamil edilməsi proqnozlaşdırılır və 2021-ci il yanvarın 1-dək olan dövr üzrə aşağıdakı vergi güzəştlərini təqdim edirik: Epidemiyanın qarşısının alınması, əhalinin həyat və sağlamlığının qorunması məqsədilə vergiödəyiciləri tərəfindən həyata keçirilən zəruri profilaktik, o cümlədən dezinfeksiya tədbirlərinə görə çəkilmiş xərclərin məhdudiyyəti nəzərə alınmadan gəlirlərdən çıxarılması, həmçinin əhalinin bir sıra ərzaq və tibbi ehtiyacları üçün zəruri olan və siyahısı, cənab Prezident, Sizin tərəfinizdən təsdiq olunan bəzi məhsul növlərinin idxalının əlavə dəyər vergisindən müddətli azad edilməsi. Yəni, bu, kifayət qədər geniş paketdir və bu paketdə artıq Siz qeyd etdiyiniz kimi, yeni rejimdə fəaliyyət göstərilməsi də müəssisələr tərəfindən nəzərə alınıb.

Prezident İlham Əliyev: Sahibkarlarla bu məsələ ilə bağlı müzakirələr aparılıb?

Nazir Mikayıl Cabbarov: Möhtərəm cənab Prezident, Sizin Sərəncamınıza uyğun olaraq yaradılmış işçi qruplarında sahibkarlıq subyektləri, Sahibkarlar Konfederasiyası, Azərbaycan Banklar Assosiasiyası və bütün aidiyyəti dövlət orqanlarının iştirakı ilə müzakirələr aparılıb və sahibkarların rəyi nəzərə alınıb.

Prezident İlham Əliyev: Yəni, sahibkarların bu təkliflər paketinə münasibəti nədən ibarətdir, bu, onları qane edir, yoxsa bundan daha böyük güzəştlər istəyirlər? Bu barədə məlumat verin.

Nazir Mikayıl Cabbarov: Möhtərəm cənab Prezident, vergi güzəştlərinə gəldikdə, bu, geniş və əhatəli vergi güzəşti paketidir. Məlum olduğu kimi, bu, yeganə dəstək mexanizmi deyil. Nümunə kimi, bu gün Maliyyə Sabitliyi Şurasında müzakirəsi gözlənilən məsələ ondan ibarətdir ki, bütün digər biznes fəaliyyətinə də pandemiyanın təsirsiz ötüşməməsini nəzərə alaraq, misal üçün, bank kreditləri olan və bank kreditlərinə də requlyativ tədbirlərin yumşaldılması. Bu, sahibkar üçün nə deməkdir? Bu, o deməkdir ki, banklara imkan verir ki, onların cari kredit ödənişlərini yumşaldır, restrukturizasiya edir, dövr verir, müddət verir. Bu iş Mərkəzi Bankın, Banklar Assosiasiyasının təşəbbüsü ilə işçi qrup çərçivəsində, aidiyyəti digər işçi qrup çərçivəsində İqtisadiyyat Nazirliyində sahibkarların iştirakı ilə həyata keçirilir. Bu qərarın da qısa müddətdə Sizin diqqətinizə təqdim edilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyev: Yaxşı. Verdiyim tapşırıqları operativ, şəffaf şəkildə yerinə yetirmək lazımdır. Əminəm ki, bu tədbirlərin görülməsi nəticəsində biz həm əhalinin sosial müdafiəsini gücləndirəcəyik, eyni zamanda, sahibkarlara əlavə dəstək verəcəyik və ən önəmlisi, insanların həyatını, sağlamlığını qoruyacağıq.

Əminəm ki, Azərbaycan xalqı karantinin uzadılmasını düzgün başa düşəcək. Bir daha demək istəyirəm ki, bu, hər birimiz üçün böyük çətinliklər törədir. Ancaq insanların sağlamlığı, həyatı hər şeydən üstündür. Nə qədər lazımdır, dözməliyik. Onu da bildirməliyəm ki, insanların vəziyyətini yaxşılaşdırmaq üçün çox böyük sosial və iqtisadi paket təqdim olunur. Əvvəlki dövrlərdə 1 milyard manat məbləğində dəyərləndirilirdi, ondan sonra 2,5 milyard manat həcmində dəyərləndirilirdi. İndi verdiyim tapşırıqlar nəticəsində bu iqtisadi paket 3 milyard manatı, bəlkə də 3,5 milyard manatı ötəcək. Nə qədər lazımdır, biz bunu edəcəyik. Azərbaycan bütün imkanları səfərbər edib ki, bu vəziyyətdən az itkilərlə çıxsın, insanların həyatını qorusun və postpandemiya dövrünə hazır olsun. Əminəm ki, biz bunu təmin edəcəyik. Sağ olun.

> *“Əgər biz vaxtında qabaqlayıcı tədbirlər görməsəydik, bu gün Azərbaycanda xəstələrin sayı min yox, bəlkə on min, iyirmi min, bəlkə də daha çox olardı”*

# Sorğu: Azərbaycan vətəndaşlarının 94.5 faizi Prezident İlham Əliyevə inanır və etimad göstərir!




***Prezident İlham Əliyevin son dövrdə ölkədə həyata keçirilən inqilabi islahatlarla bağlı cəmiyyətin ictimai rəyinə müstəsna əhəmiyyət verməsini nəzərə alaraq, Sosial Tədqiqatlar Mərkəzi (STM) 2019-cu ildən etibarən yeni formatlı sosioloji sorğulara start verib. Bu sorğular islahatlarla bağlı ictimai rəyin rüblük (3 aylıq) monitorinqi baxımından ölkədə bir ilk olmaqla yanaşı, həm də sosial proseslərin dinamikasını və ictimai rəydə dəyərləndirilməsini daha operativ izləməyə imkan verir.***

Sosial Tədqiqatlar Mərkəzindən AZƏRTAC-a bildirilib ki, təqdim edilən növbəti hesabat, 2020-ci ilin ilk rübünü (yanvar-mart) əhatə edir. Sosioloji sorğu əsaslı bu analitik hesabatın məqsədi bəhs edilən müddətdə dövlət başçısının daxili və xarici siyasətinin başlıca məqamları, ölkədəki ictimai-siyasi proseslərin vəziyyəti ilə bağlı xalqımızın rəyinin operativ öyrənilməsi, qanunverici, icraedici hakimiyyət və hüquq-mühafizə sistemində gedən proseslərə cəmiyyətin münasibətini çevik dəyərləndirməklə ümumi mənzərənin göz önündə canlandırılması, müvafiq qərarların qəbulunda mötəbər mənbə kimi həm də ictimai rəyə istinad edilməsinə şərait yaratmaqdır.

Rəy sorğusunda dövlət başçısının həm daxili, həm də xarici siyasət sahəsində çoxşaxəli fəaliyyətini izləməyə imkan verən, siyasi təqvimdə tarixi əhəmiyyətə və xüsusi çəkiyə malik olan, rəsmi xronikada, eləcə də yerli və xarici mediada geniş işıqlandırılan hadisələr əksini tapıb.

2020-ci ilin yanvar-mart ayları ərzində də, həmişə olduğu kimi, Azərbaycanın dövlət başçısının fəaliyyətində yerli və beynəlxalq ictimai rəydə gündəmə çevrilən və yadda qalan hadisələr baş verib. Bu hadisələr Prezident İlham Əliyevin dövlətçiliyin gücləndirilməsi naminə daxili və xarici siyasət sahəsində həyata keçirdiyi fəaliyyəti diqqət mərkəzinə gətirməklə yanaşı, ona olan inam və etibarın daha da yüksəlməsini təmin edib.

Beləliklə, 2020-ci ilin birinci rübü ərzində Prezident İlham Əliyevin daxili və xarici siyasət sahəsində həyata keçirdiyi fəaliyyətə ictimai rəyin münasibətinin və Prezidentə inam indeksinin öyrənilməsi üçün Sosial Tədqiqatlar Mərkəzi (STM) tərəfindən keçirilən sorğunun nəticələri ən qısa şəkildə belə ifadə edilə bilər:

Bütün dünyada neft qiymətlərinin aşağı düşməsi, beynəlxalq geosiyasi qarşıdurmaların kəskinləşməsi, II Dünya müharibəsindən sonra dünyada ilk dəfə ən dərin sosial, siyasi, iqtisadi böhran vəziyyətini yaradan yeni qlobal pandemiyanın sürətlə yayılması fonunda Prezident İlham Əliyevə cəmiyyətin inam və etibarı, onun həyata keçirdiyi düzgün siyasət nəticəsində daha da artıb, xalqımızın rifahı və firavanlığının daha da yaxşılaşmasına yönələn islahatlar kursuna dəstək yüksələn xətt üzrə gedir.

Təqdim edilən "İnam indeksi" ictimai rəy sorğusuna əsaslanan analitik hesabat həmin qənaəti təsdiq edir.

### Sorğunun metodoloji prinsipləri

* Keçirilən ictimai rəy sorğusunda ümumilikdə 1212 respondent iştirak edib.

* İctimai rəy sorğusu klaster seçmə metoduna əsaslanıb. Ümumilikdə, ölkə üzrə seçilmiş ünvanlarda 101 klaster təsadüfi seçim əsasında müəyyən edilib və hər birində sorğuda iştirak etməyə müsbət cavab verən ilk 12 nəfər əsas seçimə daxil edilib.

* Sorğuda iştirak üçün ailədə doğum günü sorğu keçirilən vaxta yaxın olan şəxs seçilib.

* Sorğunun nəticələri 95 faiz əminlik intervalı, statistik xəta əmsalının 3 faiz olması nəzərə alınaraq təhlil edilib.

* Sahə işi 2020-ci ilin mart ayı ərzində keçirilib.

Regionlar. Sorğu aşağıdakı iqtisadi-coğrafi rayonlarda həyata keçirilib: Bakı, Abşeron, Quba-Xaçmaz, Dağlıq Şirvan, Şəki-Zaqatala, Aran, Gəncə-Qazax, Yuxarı Qarabağ, Lənkəran. Sorğu Naxçıvan Muxtar Respublikasında və işğal edilmiş regionların ərazisi istisna olmaqla bütün ölkəni əhatə edib. Eyni zamanda, işğal edilmiş rayonların etnik azərbaycanlı əhali qrupu da sorğuya cəlb olunub.

### Nəticə

* 2020-ci ilin birinci rübü ərzində Prezident İlham Əliyevin daxili və xarici siyasət sahəsində həyata keçirdiyi fəaliyyətə ictimai rəyin münasibətinin, Prezidentə "İnam indeksi"nin öyrənilməsi ilə bağlı keçirilmiş sorğunun nəticələrinin təhlili göstərir ki, Prezident İlham Əliyevə cəmiyyətin inam və etibarı, onun həyata keçirdiyi düzgün siyasət nəticəsində daha da artıb, xalqımızın rifahı və firavanlığının daha da yaxşılaşmasına yönələn islahatlar kursuna dəstək yüksələn xətt üzrə davam edib.

* Hakimiyyətin digər qolları (qanunverici və məhkəmə hakimiyyəti) ilə müqayisədə respondentlərin mütləq əksəriyyəti (94.7 faiz) Prezidentə etibar edir.

* Prezidentə "tam etibar edirəm" deyənlər respondentlərin mütləq çoxluğunu (90.8 faiz) təşkil edir.

* Respondentlərin 57.4 faizi parlamentə, 46.2 faizi yerli icra hakimiyyətinə, 49 faizi məhkəməyə etibar edir. Bu üç hakimiyyət qolu içərisində ən aşağı etibarlılıq icra hakimiyyətinədir. Bu, onu deməyə əsas verir ki, ölkə əhalisi hakimiyyətin digər strukturları ilə müqayisədə Prezidentə daha çox etibar edir.

* Ölkə başçısının hərbi, siyasi və sosial-iqtisadi sahələrdəki fəaliyyəti ümumilikdə böyük əksəriyyət tərəfindən müsbət dəyərləndirilib. Prezidentin ordu quruculuğu və silahlı qüvvələrin modernləşdirilməsi (96 faiz) və xarici siyasət (95 faiz) sahələrindəki fəaliyyəti respondentlərin mütləq əksəriyyəti tərəfindən daha çox müsbət qiymətləndirilir.

* 2019-cu ildə keçirilən tədqiqatın nəticələri ilə yeni nəticələri müqayisə etdikdə aydın olur ki, keçən bir neçə ay ərzində Prezidentin müxtəlif sahələrdəki fəaliyyətinə əhalinin münasibəti müsbətə doğru daha da yüksəlib. Digər önəmli məqam odur ki, Prezidentin müxtəlif istiqamətlərdəki fəaliyyətini "çox yaxşı" qiymətləndirənlər nəzərəçarpacaq dərəcədə artıb.

* Əhalinin gündəlik həyatına birbaşa təsir edən, yaxud təsiri hiss edilən məsələlərin sosial-iqtisadi sahədə korrupsiyaya qarşı mübarizə səviyyəsinin ictimai rəydə qiymətləndirilməsinin nisbətən aşağı olması bu sahənin, eləcə də işsizlik və sosial vəziyyətin yaxşılaşdırılması kimi məsələlərin yaxın dövr üçün dövlət siyasətinin əsas hədəflərindən biri kimi qalmalı olduğuna dəlalət edir.

* 2020-ci ilin fevral ayında Münhen Təhlükəsizlik Konfransındakı çıxışında ("Valday" Beynəlxalq Diskussiya Klubunda Prezidentin çıxışının davamı kimi) Ermənistanın baş nazirini və işğalçılıq siyasətini tarixi həqiqətlərlə ifşa etməsi ictimai rəydə vətəndaşların Prezidentə olan münasibətinə müsbət təsir göstərməklə bərabər, ərazi bütövlüyümüzün bərpa edilməsinə olan inamı da yüksəltmişdir.

* Prezidentin Münhen Təhlükəsizlik Konfransındakı çıxışı Ermənistanın baş nazirinin növbəti dəfə aciz duruma düşməsi (56.7 faiz), Prezidentin növbəti diplomatik qələbəsi (48.5 faiz), Dağlıq Qarabağ probleminin həlli istiqamətində yeni bir mərhələ (44.3 faiz ) kimi qiymətləndirilib.

* Rəyi öyrənilən respondentlərin əhəmiyyətli bir hissəsi (75,9 faizi) dünya neft bazarlarındakı volatillik fonunda valyuta məzənnəsinin sabit saxlanılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirləri əhəmiyyətli dərəcədə səmərəli hesab edir.

* Ölkədə maliyyə-bank sektorundakı sabitliyin təmini ilə bağlı nəticə əsaslı tədbirləri müvafiq olaraq respondentlərin 63,1 faizi kifayət qədər səmərəli hesab edir.

* COVID-19 pandemiyasının və eləcə də qlobal neft böhranının (neft qiymətlərindəki kəskin eniş) dərinləşdiyi bir dövrdə ölkədə ərzaq təhlükəsizliyi ilə təminat sahəsində reallaşdırılmış genişmiqyaslı işləri vətəndaşlar yüksək dəyərləndirir (87.8 faiz).

*Ardı Səh. 6*

# Sorğu: Azərbaycan vətəndaşlarının 94.5 faizi Prezident İlham Əliyevə inanır və etimad göstərir!



Əvvəli-Səh-5

* Rəyi öyrənilənlərin 87.8 faizi müvafiq dövlət qurumlarının sosial-iqtisadi islahatlarla bağlı ictimaiyyəti periodik məlumatlandırmasını səmərəli qiymətləndirir.

* 89.2 faiz respondent ölkə Prezidentinin milli genofondun qorunması, sosial səhiyyə və sağlamlığın daha da möhkəmləndirilməsi məsələlərinə xüsusi həssaslıqla yanaşmasını, daima diqqət mərkəzində saxlamasını olduqca yüksək qiymətləndirərək bu istiqamətdə dövlət siyasətini təqdir edir.

* Respondentlərin mütləq əksəriyyəti (93 faiz) dövlətin koronavirusla bağlı ilkin mərhələdə həyata keçirdiyi tədbirləri müsbət dəyərləndirərək yetərli sayır.

* Respondentlərin böyük əksəriyyəti (87.8 faiz) pandemiyanın mövcud olduğu vəziyyətdə hər hansı problemlə qarşılaşdığı zaman dövlətin onlara dəstək göstərəcəyinə inanır.

* Respondentlərin böyük əksəriyyəti pandemiyaya qarşı mübarizə tədbirləri çərçivəsində atılan addımlara karantin məhdudiyyətlərinin tətbiq edilməsinə, bir sıra qonşu ölkələrlə sərhədlərin bağlanmasına (85.6 faiz), kütləvi tədbirlərin qadağan edilməsinə (84 faiz) tədrisin dayandırılmasına (82.4 faiz) daha müsbət münasibət bildirib.

* Ümumilikdə, respondentlərin mütləq əksəriyyəti (92.8 faiz) ictimai qınağa səbəb olan hadisələrə Prezidentin reaksiyası ilə həmrəydir.

* Respondentlərin əksəriyyəti (88.9 faiz) yerlərdə baş verənlər barədə Prezidentin ümumilikdə məlumatlı olması fikrindədirlər. Lakin nə dərəcədə məlumatlı olub-olmaması barədəki fikri birmənalı deyil - "tam məlumatlıdır" (44.3 faiz) və "qismən məlumatlıdır" (44.6 faiz) cavablarını seçənlərin çəkisi demək olar ki, eynidir.

* Qeyd etmək lazım gəlir ki, respondentlərin 10 faizinin Prezidentin yerlərdə baş verənlər barədə tam məlumatsız olduğunu hesab etməsi düşündürücü məqamdır. Bu nəticəyə əsasən ölkə rəhbərinin çıxışlarında tez-tez vurğuladığı ictimai nəzarətin vacibliyi ilə bağlı fikrinin əhəmiyyətli olduğunu bir daha görə bilərik. Sorğunun nəticəsi bunu da deməyə əsas verir ki, yerlərdə gedən proseslərin və mövcud problemlərin ən yuxarı instansiyalara çatdırılması mexanizmlərinin bir daha nəzərdən keçirilməsinə, təkmilləşdirilməsinə ehtiyac var. Məsələn, vətəndaşların müraciətlərinin müvafiq ünvana çatmaması bu cəhətdən əsas problemlərdən biridir.

* Respondentlərin nəzərində Prezidentin yerlərdə baş verənlərlə bağlı məlumatlılığı onun qərar qəbul etməsində əsasən qanunazidd hərəkətlərə yol verən məmurların cəzalandırılmasında (67.5 faiz), korrupsiyaya qarşı mübarizədə (48.7 faiz) və kadr islahatlarında (43.2 faiz) özünü büruzə verir.

* Sosial problemlərin həllində və onlara çevik reaksiya verilməsində Prezidentin məlumatlılıq səviyyəsinin mühüm əhəmiyyətə malik olmasını yalnız hər üç respondentdən birinin ifadə etməsi düşündürücü məqam hesab edilə bilər.

* Əhalinin böyük əksəriyyəti (81.8 faiz) "tam əminliklə" bu qənaətdədir ki, yerli icra hakimiyyəti başçılarının Prezident tərəfindən vəzifədən azad edilməsində ictimai fikrin birbaşa təsiri var. Bu fikirdə olanların ümumi göstəricisi isə 95.2 faiz təşkil edir. Əhali arasında belə qənaətin yayılması Prezident-vətəndaş münasibəti cəhətdən müsbət səciyyələndirilə bilər.

? Ümumilikdə, respondentlərin üçdə ikisindən bir qədər çox hissəsi ölkə rəhbərinin ictimai qınağa səbəb olan məsələlərə reaksiyasından tam razıdırsa, dörddə biri qismən razıdır. Nəticələrə əsasən, insanlar ölkə başçısının özünün fəaliyyətində ictimai rəyə həssas olduğunu düşünür.

* İslahatlar və korrupsiyaya qarşı mübarizə siyasəti çərçivəsində Dövlət Təhlükəsizlik Xidməti tərəfindən yerli icra başçılarına qarşı aparılan əməliyyatlar xüsusilə regionlarda yaşayan vətəndaşlarda müsbət gözləntilərin yaranmasına səbəb olub. Bəzi hallarda vəziyyətin dəyişməyəcəyi, məmur özbaşınalığının davam edəcəyini düşünənlərin belə fikirləri dəyişməkdədir. İnsanlar bu kimi addımları da islahatların əsas qolu kimi qiymətləndirir və bunun davamlı olmasını arzulayırlar.

* Həmçinin Prezidentin etimadını doğrultmayan məmurların bu şəkildə cəzalandırılması onu göstərir ki, islahatlar dönməz və ardıcıl xarakter daşıyır, xalqa xidmət fəaliyyətin yeganə meyarıdır. Eləcə də, qanun qarşısında hər kəs bərabərdir. İnsanlarda da qanunun aliliyinə inam artmaqdadır.

* Respondentlərin yarıdan çoxu (54.4 faiz) bu əməliyyatlardan sonra rayon icra hakimiyyəti başçılarının korrupsiyaya yol verməkdən çəkinəcəyini düşünür. Bir o qədər də respondentdə vətəndaşların qanunun aliliyinə inamının artacağı gözləntisi (50.3 faiz) var.

* Respondentlərin əksəriyyəti (85 faiz) Dövlət Təhlükəsizlik Xidməti tərəfindən aparılan əməliyyatların Prezidentin imicinə müsbət təsir etdiyini düşünür. Vəzifələrindən sui-istifadə edən məmurların cəzalandırılaraq vəzifədən uzaqlaşdırılması başlanan islahatlara heç kimin mane ola bilməyəcəyini göstərir.

* Həyata keçirilən kadr dəyişiklikləri vətəndaşların əsaslı hissəsinin nəzərində Prezidentin nüfuzuna müsbət təsir göstərən əsas amillərdən biridir.

* Respondentlərin mütləq əksəriyyəti (91 faiz) son dövrlər yerli icra hakimiyyəti orqanlarına daha gənc kadrların təyin olunmasını bu və ya digər dərəcədə müsbət (75.2 faiz "çox yaxşı", 15.8 faiz "əsasən yaxşı") qiymətləndirir.

* Respondentlərin əhəmiyyətli hissəsi (63.9 faiz) Milli Məclisin yeni tərkibinin Prezidentin islahatlar kursuna dəstək və töhfə verə biləcəyini düşündüyü halda, 21.1 faiz respondent bu haqda fikir bildirməkdə çətinlik çəkib.

* Respondentlər Prezidentin təhlükəsizlik orqanlarında həyata keçirdiyi kadr dəyişikliklərinin ümumi islahatların effektivliyinə (79.5 faiz), milli təhlükəsizliyin gücləndirilməsinə (85.5 faiz), xalqın təhlükəsizlik orqanlarına olan inamına (81.9 faiz) müsbət təsir edəcəyi fikrindədir.

? "Hansı sahədə daha çox islahatlara ehtiyac var?" sualına verilən cavablara əsasən deyə bilərik ki, icra hakimiyyəti (53.7 faiz) və məhkəmə (45.7 faiz) hakimiyyətində islahatların olması əhali tərəfindən ən çox ehtiyac duyulandır. İcra hakimiyyəti sahəsində islahatların vacibliyini deyənlər içərisində icra hakimiyyətinə etibar etməyənlər üstünlük təşkil edir. Bu nəticə onu deməyə əsas verir ki, hələ də yerlərdə icra hakimiyyətlərinin fəaliyyətləri qənaətbəxş deyil və vətəndaşlar tərəfindən səmərəli qiymətləndirilmir.

* Respondentlərin təxminən yarısının məhkəmə sahəsində də islahatların zəruriliyini bildirməsi bu istiqamətdə də islahatların aparılmasının vətəndaşların gözləntisində də olduğunu göstərir. Yuxarıda da qeyd edildiyi kimi, məhkəmələrə etibar əhali arasında o qədər də yüksək deyil (49 faiz). Bu iki fikir arasındakı əlaqəyə baxdıqda aydın olur ki, məhkəmələrdə islahatların olmasını istəyənlər içərisində məhkəmə orqanlarına etibar etməyənlər üstünlük təşkil edir.

? Digər iki sahə ilə müqayisədə respondentlər qanunverici sahədə (24.5 faiz) islahatların vacibliyinə daha az ehtiyac duyur. Bu, qanunverici hakimiyyətdə köklü islahatların 2020-ci ildə aparılması ilə bağlı ola bilər. Həmçinin, respondentlərin əhəmiyyətli hissəsi parlamentin yeni tərkibinin Prezidentin islahatlar kursuna dəstək verəcəyi fikrindədir. Bu məqam da, yuxarıda vurğulandığı kimi, ictimai rəydə parlamentin yeni tərkibi ilə bağlı gözləntilərin olması ilə izah edilə bilər.

* Rəyi soruşulanların 77.6 faizinin nəzərində "Prezidentin çıxışlarında bütün hakimiyyət təmsilçilərinə xalqa xidmət etməyi və xalqa yaxın olmağı tapşırması" ölkə başçısının nüfuzuna "ən çox təsir" göstərən amil kimi irəli çıxır ki, bu da məmurların cəzalandırılması və kadr dəyişikliklərinin vətəndaşlar üçün yüksək əhəmiyyət kəsb etdiyini göstərir.

* Təsir dərəcəsinə görə növbəti pillələrdə "xalqa xidmət etməyən məmurlara qarşı qətiyyətli davranışı" (71.8 faiz), "xalqın içərisində olması" (71.6 faiz) və "sadə və təvazökar olması" (71.3 faiz) amilləri dayanır.

* Respondentlərin mütləq əksəriyyəti (94.2 faiz) Prezidentin öz sadəliyi və təvazökarlığı ilə məmurlara örnək olması fikrindədir. Ölkə başçısının bir çox tədbirlərdə, görüşlərdə olan davranışları, səmimi ünsiyyəti, insanları sonadək dinləməsi vətəndaşlarda bu fikri formalaşdırır.

* 2020-ci ilin birinci rübündə vətəndaşların Prezidentə olan inam və etimadının dinamikasına baxdıqda aydın olur ki, bu istiqamətdə yüksəlmə var. Belə ki, STM tərəfindən 2019-cu ildə keçirilən "Prezidentin fəaliyyəti ictimai rəydə" İnam İndeksində oktyabr ayı üzrə bu göstərici 54.6 faiz idisə, mart ayında bununla müqayisədə göstərici 58.1 faizdir. Ümumilikdə 2020-ci ilin mart ayına olan göstəricilərə əsasən deyə bilərik ki, respondentlərin mütləq əksəriyyəti (94.5 faizi) ölkə başçısına inanır və etimad göstərir.

? Vətəndaşlar Prezidentin fəaliyyəti ilə bağlı məlumatları televiziyadan (81.1 faiz) və sosial şəbəkələrdən (41.7 faiz) alırlar. Prezident.az saytından (7.3 faiz) və Prezidentin sosial şəbəkə hesablarından (8.4 faiz) istifadə göstəricisi o qədər də yüksək deyil. Respondentlərin demoqrafik təhlili göstərir ki, hər iki elektron ünvana ali təhsilli şəxslər və Bakıda yaşayanlar daha çox daxil olur.

* Vətəndaşların digər sosial şəbəkələrdən deyil, birbaşa mənbənin özündən Prezidentin sosial şəbəkə hesablarından məlumat alması daha düzgün informasiyaya çıxış baxımından səmərəli sayıla bilər.



# VƏTƏNDAŞIN SƏSİ: "Sizin yorulmaz fəaliyyətiniz xalqımızı bu bəladan qoruyacaq"

***Dünyada koronavirus pandemiyasının qlobal həddə çatmaqla insanların sağlamlıqlarına zərər vurması reallığı bəşəriyyəti ciddi şəkildə narahat edir. Əbəs deyil ki, BMT və s. nüfuzu qurumlar koronavirusla mübarizəni görünməyən düşmənin insanlara qarşı müharibəsi adlandırıblar.***

Lakin bütün bunların fonunda ən çox qeyd edilən məsələlərdən biri də, COVID-19-a qarşı hazırlıqların olması haqqındadır. Daha dəqiq desək, bu gün ən çox zərər görən ölkələr məhz koronavirus təhlükəsinə ciddi yanaşmayaraq, ona biganə olanlardırlar. Nəticədə yüz minlərlə insan bu infeksiyaya yoluxur, minlərlə insan həyatını itirir. O cümlədən, tibbi avadanlıqların qıtlığı, maska, dezinfeksiyaedici məhlulların tapılmaması kimi məsələlərlə yanaşı, buraya əlbəttə ki, insanların məsuliyyətsizliyi, yaşadıqları ölkələrdəki cavabdeh qurumların maarifləndirici tədbirlər aparmamaları və s. halları da əlavə etmək olar.

Azərbaycanda isə bu kimi xaos, panika yaşanmadı və fakt budur ki, ölkəmizdə zamanında və operativ qaydada görülən tədbirlər çoxsaylı insan tələfatları ilə müşahidə edilmədi, vaxtında ciddi karantin tətbiqi barədə qərar qəbul olundu və ən əsası, xəstəxanalar hazırlıqlı vəziyyətə gətirildi, tələb olunan tibbi avadanlıqlarla təchiz olundu, habelə belə bir vəziyyətdə yeni xəstəxanalar istifadəyə verildi. Bütün bu reallıqların təməlində dayanan ən əsas faktorlardan biri isə, ölkəmizdə aparılan siyasətin tərkibində insan amilinə göstərilən diqqət və Prezident İlham Əliyevin müxtəlif cavabdeh qurumlara, güc strukturlarına, səhiyyə təşkilatlarına, sahibkarlıq müəssisələrinə verdiyi qətiyyətli tapşırıqları və görülən işlərə şəxsi nəzarəti reallığı dayanır.

**Laçın rayonundan olan Sumqayıt sakini məcburi köçkün, Qarabağ qazisi Murad Eyvazov: "Nə yaxşı ki, Sizin kimi Prezidentimiz var"**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması ilə bağlı gördüyü işlər xalqımız tərəfindən yüksək qiymətləndirilir. Bununla əlaqədar dövlətimizin başçısına minnətdarlıq məktubları gəlməkdə davam edir. SİA bu məktubların daha bir neçəsini təqdim edir: Sumqayıtda yaşayan Laçın rayonundan məcburi köçkün Murad Eyvazov yazır: Möhtərəm cənab Prezident. Qarabağ qaziləri hər zaman Sizin diqqət və qayğınızla əhatə olunublar. Bütün dünyanın üzləşdiyi pandemiya dövründə Siz biz əlilləri, veteranları da unutmur və biz hər zaman qayğınızı hiss edirik. Möhtərəm Prezident, bizə göstərdiyiniz diqqət və qayğıya görə Laçın rayonundan olan Qarabağ qaziləri adından Sizə minnətdarlığımızı bildirirəm. Biz keçmiş döyüşçülər hər zaman Sizin əmrinizə müntəzirik. Cəlilabad rayonundan Aidə Məmmədova yazır: Bizim dəyərli Prezidentimiz. Dünyanı bürüyən COVID-19 pandemiyası dövründə ölkəmizdə bizim kimi sadə vətəndaşlara göstərdiyiniz diqqətə görə şəxsən öz adımdan və ailəmizin adından Sizə təşəkkür etməyi özümə borc bildim. Sizin kimi dahi və müdrik dövlət başçısı olan bir ölkədə yaşamaq bizim üçün çox gözəl bir mükafatdır. Nə yaxşı ki, Sizin kimi Prezidentimiz var. Mən Sizə möhkəm cansağlığı arzu edirəm. Həmişə ucalarda olun. Azərbaycan xalqı hər zaman Sizin yanınızdadır.

**Gəncə şəhəri sakini təqaüdçü Nəbiyev Fazil Səfər oğlunun məktubundan: "Cənab Prezident, Sizin daim yanımızda olmağınızdan qürur və şərəf duyuruq"**

Möhtərəm cənab Prezident. Mən və ailəm Sizi daim dəstəkləmişik və bundan sonra da dəstəkləyəcəyik. Xalqımızın rifahının yaxşılaşdırılması üçün səylə çalışmağınız və yürütdüyünüz ardıcıl siyasət bizi fərəhləndirir. Hazırda koronavirus pandemiyası dünyaya və insanlığa meydan oxuyur. İnanırıq ki, məhz Sizin yorulmaz fəaliyyətiniz xalqımızı bu bəladan qoruyacaq və dövlətimiz qısa zamanda bu ağır sınaqdan üzüağ çıxacaqdır. Siz hər bir vətəndaşın sağlam qalması, ölkəmizin bu vəziyyətdən minimal itki ilə xilas olması üçün bütün imkanları səfərbər edirsiniz. İnanıram ki, tezliklə bu qara buludlar başımızın üstündən çəkiləcək və dövlətimiz Sizin müdrik rəhbərliyinizlə tutduğu inkişaf yolunu davam etdirəcəkdir. Cənab Prezident, Sizin daim yanımızda olmağınızdan qürur və şərəf duyuruq. Tanrı Sizi, dövlətimizi və xalqımızı qorusun.

**Yevlax şəhər sakini Knyaz Əliyev yazır: "Sizin rəhbərliyinizlə həyata keçirilən bu işlər vətəndaşlarımızın sağlam yaşamasına yönəlib"**

Möhtərəm cənab Prezident. Dünyada tüğyan edən, bəşəriyyətin bəlasına çevrilən COVID-19 pandemiyası hər birimiz üçün böyük təhlükəyə çevrilib. Bütün dünya bu bəlaya qarşı mübarizəyə səfərbər olub. Dünyanın inkişaf etmiş ölkələri nə qədər çalışsalar da, həm yoluxmanın, həm də itkilərin qarşısını almaqda aciz qalıblar. Sizin rəhbərliyinizlə ölkəmizdə virusla mübarizə işi çox uğurla həyata keçirilir. Tarixində ilk dəfə belə xəstəliklə üzləşən gənc, müstəqil ölkəmizdə görülən tədbirlər nəticəsində yoluxma və ölüm hallarının sayı dünyanın elmi-texniki cəhətdən inkişaf etmiş ölkələrindən dəfələrlə aşağıdır. Cənab Prezident, bu günlərdə modul tipli yeni xəstəxanaların tikilməsi haqqında imzaladığınız Sərəncam hər birimizin sevincinə səbəb oldu. Sizin rəhbərliyinizlə həyata keçirilən bu işlər vətəndaşlarımızın sağlam yaşamasına yönəlib. Hökumətin hər bir üzvü ona verilən tapşırığı dəqiq yerinə yetirir. Bütün bunlar Sizin uzaqgörənliklə həyata keçirdiyiniz uğurlu siyasətinizin məntiqi nəticəsidir. Pandemiyanın ölkəmizdə yayılmasına qarşı atdığınız addımlara görə bir ağsaqqal kimi Yevlax sakinləri adından Sizə minnətdarlığımı bildirirəm. Allah Sizi qorusun. Var olun, cənab Prezident! Allah atanız, xalqımızın ümummilli lideri Heydər Əliyevə rəhmət eləsin.

**Laçın rayonundan məcburi köçkün Əmrah Allahverdizadə Abşeron rayonundan yazır: "Biz hər zaman Sizinləyik"**

Hörmətli cənab Prezident. Azərbaycan xalqının bu ağır günündə fasiləsiz çalışdığınıza, insanlara qayğı göstərdiyinizə görə ailəmiz adından Sizə minnətdarlığımı bildiririk. Siz 10 milyonluq Azərbaycana uğurla rəhbərlik edir, insanlara diqqət və qayğınızı əsirgəmirsiniz. Biz də Sizi dəstəkləməyi özümüzə borc bilirik. Mən və ailəm Sizinlə fəxr edirik və daim Sizinləyik. Allah köməyiniz olsun. Bakı şəhərindən Səbuhi İsazadə yazır: Hörmətli cənab Prezident. Dünya ölkələrindəki acınacaqlı vəziyyət hər kəsin gözü önündədir. İnkişaf etmiş ölkələrdə xaos, insan itkiləri vahimə yaradır. Ölkəmizdə isə Sizin sayənizdə sakitlik, həmrəylik, əmin-amanlıq, bolluq müşahidə olunur. Bütün bunlara səbəb Sizin daim ölkə vətəndaşlarını düşünməyiniz, vaxtında qətiyyətli tədbirlər görməyinizdir. Cənab Prezident, var olun ki, həm kəndlinin, həm də sahibkarın, bir sözlə, hər bir vətəndaşın yanındasınız. Allah Sizi xəta-bəladan uzaq eləsin. Biz hər zaman Sizinləyik.

**Gəncə şəhər sakinləri Vüsal Hüseynov və Azadil Hüseynova Prezidentə yazırlar: "Allah Sizə uzun ömür versin, Sizin kölgənizi Azərbaycan dövlətinin, Azərbaycan xalqının üzərindən əskik etməsin"**

Möhtərəm cənab Prezident. Bütün dünyam lərzəyə salan koronavirus pandemiyası təəssüf ki, Vətənimiz Azərbaycandan da yan ötmədi. Lakin, Sizin uzaqgörənliyiniz, bu ümumbəşəri bəlaya qarşı vaxtında verdiyiniz göstəriş və Sərəncamlar başqa ölkələrlə müqayisədə Azərbaycana az təsir göstərməkdədir. Siz daim Azərbaycan xalqının yanında olduğunuzu bir daha sübut etdiniz. Əziz Prezidentimiz, Sizin dediyiniz kimi, "Biz birlikdə güclüyük!". Biz də deyirik ki, biz Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevlə daha güclüyük. Ölkəmizdə yaratdığınız əmin-amanlığa və biz vətəndaşlara göstərdiyiniz qayğıya görə Sizə dərin minnətdarlığımızı bildiririk. Biz daim Sizinləyik. Cənab Prezident, Allah Sizə uzun ömür versin, Sizin kölgənizi Azərbaycan dövlətinin, Azərbaycan xalqının üzərindən əskik etməsin.

**Paytaxt sakini Vüqar Heybətovdan: "Sizə və Mehriban xanım Əliyevaya öz adımdan və ailəm adından bu çətin günlərdə xalqımıza göstərdiyiniz diqqət və qayğıya görə dərin təşəkkürümü bildirirəm"**

Hörmətli cənab Prezident. Ölkəmizdə kiçik biznesə göstərdiyiniz yardıma və dəstəyə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Bütün xoş niyyətlərinizin həyata keçməsini diləyir, Sizə və yaxınlarınıza möhkəm cansağlığı, xoşbəxtlik və səadət arzulayıram.

**Bakı şəhər sakini Pərviz Mustafayev yazır: "Sizə bu çətin və şərəfli yolda ailəmiz adından dərin minnətdarlığımı bildirirəm"**

Möhtərəm cənab Prezident. Sizə və Mehriban xanım Əliyevaya öz adımdan və ailəm adından bu çətin günlərdə xalqımıza göstərdiyiniz diqqət və qayğıya görə dərin təşəkkürümü bildirirəm. Allah Sizi və ailənizi qorusun. İsmayıllı rayonundan Kamran Məlikzadə yazır: Hörmətli cənab Prezident. COVİD-19 qlobal pandemiyası ilə bağlı ölkəmizdə aparılan təxirəsalınmaz tədbirlər Sizin iradəniz və birbaşa nəzarətinizlə uğurla davam etdirilir. Hər zaman vətəndaşının yanında olan Prezident kimi Siz bu çətin dövrdə də bu şərəfli missiyanı həyata keçirir, insanlarımızın qayğısına qalır və onların maraqlarını təmin edirsiniz. Sizə bu çətin və şərəfli yolda ailəmiz adından dərin minnətdarlığımı bildirirəm. Allah Sizi, ailənizi və xalqımızı qorusun.

**Bakı şəhərindən Sabir Əfəndiyev yazır: "Həmişə əmin olmuşam və bu gün bir daha təsdiqləndi ki, öz seçimimdə yanılmamışam"**

Möhtərəm cənab Prezident. Mən pensiyaçı babayam, yeddi nəvəm vardır, onlardan ikisi qardaş Türkiyədə təhsil alır. Onların atası, yəni oğlum Azərbaycan Ordusunun zabitidir. Ölkəmiz və dünyamız üçün bu çətin koronaviruslu günlərdə nəvələrim Türkiyədən xəbər verdilər ki, dövlətimiz onların hər birinə maddi yardım etmişdir. Bu xoş xəbərdən çox sevindim, fərəhləndim və böyük qürur hissi keçirdim, ürəyim dağa döndü. Allah da Sizi sevindirsin. Hörmətli Prezident, əlli iki ildən artıq əmək stajım vardır. Bütün həyatım boyu elimə, obama, millətimə, xalqıma, doğma yurduma, Vətənimə bağlı olmuşam, onunla birlikdə addımlamışam, ölkəmin ictimai-siyasi həyatında daim fəal olmağa çalışmışam. Xoşbəxtlikdən taleyim elə gətirmişdir ki, gənclik-tələbəlik illərim də daxil olmaqla, demək olar ki, bütövlükdə təhsil və əmək fəaliyyətim ulu öndərimiz Heydər Əliyevin Sovetlər İttifaqında və müstəqil Azərbaycanda rəhbər vəzifələrdə olduğu dövrlərə təsadüf edib. Mən onu həmişə böyük maraqla izləmişəm, dinləmişəm, daim ondan öyrənmişəm, daim ona inanmışam və yaxşı bilirəm ki, Siz hansı ictimai-siyasi məktəbin yetirməsisiniz. Odur ki, prezident seçkilərində birmənalı olaraq Sizi dəstəkləmişəm və bir seçici olaraq Sizə səs vermişəm. Həmişə əmin olmuşam və bu gün bir daha təsdiqləndi ki, öz seçimimdə yanılmamışam. Siz, doğrudan da, ölkəmizin hər bir vətəndaşının qayğısına qalan layiqli Prezidentimizsiniz, Ali Baş Komandanımızsınız. Nəticələr göz qabağındadır. Biz yaxşı görürük ki, "mənəm-mənəm" deyən lider ölkələr dünyanı çulğamış koronavirus sınağında hansı vəziyyətdədirlər. Yalnız Sizin uzaqgörənlik, yüksək təşkilatçılıq, hər bir məsələyə ciddi yanaşmaq bacarığınız, eləcə də bizim sevimli Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın xalqımıza ana qayğıkeşliyi sayəsində Azərbaycanımız ağır bəlalara düçar olmamışdır. Bunları görməyənlər nadandırlar. Əziz və hörmətli Prezidentimiz, biz ailəlikcə Sizinlə fəxr edirik. Sizə ailənizlə birlikdə uzun və sağlam ömür, cansağlığı, ailə xoşbəxtliyi, ölkə rəhbəri kimi bütün fəaliyyətinizdə daha böyük müvəffəqiyyətlər və uğurlar diləyirik.

Söz yox ki, bu ürək sözləri, səmimi minnətdarlıq hissləri xalqın öz dövlətinə, bu dövlətin adını daim uca tutan rəhbərinə, liderinə olan sevgisinin, eyni zamanda, XALQ-PREZİDENT birliyinin parlaq təcəssümüdür. Məhz bu birlik və həmrəylik addımları ilə Azərbaycan dövləti koronavirusla mübarizədən qalib ayrılacaq və artıq bunun işartıları da görünməkdədir!

***Rövşən RƏSULOV***

# Xalqın qayğıkeşi: Prezident İlham Əliyev gerçəkliyinin qürur mücəssəməsi!

***Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə daim xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasını, ümumiyyətlə, bu dəyərlərin formalaşaraq inkişafını dövlət siyasətinin əsas təməli kimi tərənnüm edib. Söz yox ki, bütün bunlar bütövlükdə milli mənəviyyatın, habelə əxlaqi dəyərlərin təcəssümü olaraq da qiymətləndirilə bilər. Bu baxımdan onu da deyə bilərik ki, Azərbaycan xalqı tarixin ən çətin dövrlərində belə, öz zəngin irsini hifz edərək onu qoruyub saxlayıb. Ümummilli Liderimiz bu xüsusda vurğulamışdır: "Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir".***





**Bəhruz QULİYEV,**
**"SƏS" qəzetinin baş redaktoru, Fəlsəfə üzrə fəlsəfə doktoru**

Bu gün həmin siyasət Onun layiqli davamçısı və siyasi varisi, Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Çünki o da bəllidir ki, mütərəqqi sosial siyasət həyata keçirilən Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, insan amilinə xüsusi diqqət yetirilir. Yəni vətəndaşlara qayğı, onun maddi, mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin təminatı daim diqqət mərkəzində saxlanılır və biz bunu tarix kimi yaşamaqla yanaşı, həm də vətəndaş, xalqın nümayəndəsi olaraq davamlı şəkildə müşahidə etməkdəyik...

### XALQ-PREZİDENT vəhdətinin, etimad və etibarının gerçəkliyi

Təbii ki, bu reallıqların arxasında dayanan mühüm məqam bilavasitə milli mənəviyyatın və dəyərlərin qorunması, insanlara həmin dəyərlər kontekstində diqqət faktoru dayanmaqdadır. Dövlətimizin başçısı hakimiyyətinin bütün dövrlərində Azərbaycanın hər bir bölgəsinə dəfələrlə səfərlər edir, əvvəllər verdiyi göstəriş və tapşırıqların nəticələri ilə maraqlanır, şəxsi nəzarətində saxlayır. Bütün bunlar vətəndaşa olan sevgi, hörmət və dəyər mücəssəmisidir!

Təkcə bu istiqamətdəki faktları sadalasaq, bir daha qeyd edə bilərik ki, xalqımızın Lideri daim vətəndaşlarla təmasda olamqla yanaşı, hətta ayrı-ayrılıqda onların problem və qayğılarını dinləyir, yerində qərarlar verir və XALQ-PREZİDENT vəhdətinin, etimad və etibarının reallığını nümayiş etdirir. Prezident İlham Əliyev atdığı bütün addımları ilə hər bir azərbaycanlının Prezidenti olduğunu isbatlayır. Bədbəxt hadisələr zamanı çətin vəziyyətə düşmüş vətəndaşların yanında olan, onlara kömək edən, problemlərini həll edən Prezident İlham Əliyev hər addımı ilə vətəndaşın yanında olduğunu sübut edir.



### Cənubdan Şimala, Qərbdən Şərqə...

Cənab İlham Əliyev daim vətəndaşlarla ünsiyyətdədir, Cənubdan Şimala, Qərbdən Şərqə bütün rayonlarımızda dəfələrlə səfərdə olur, insanların güzəranı ilə maraqlanır, problemlərinin həlli ilə bağlı yerində tapşırıqlar verir. Elə Lənkəranda bina çökəndə, Mərkəzi Aranda Kür daşanda, Zaqatalada, Şamaxıda, Ağsuda zəlzələ olanda xalq öz Prezidentini onunla çiyin-çiyinə dayanmış gördü.

### Gəlin birlikdə bu faktları bir daha xatırlayaq:

2010-cu ilin mayında - Azərbaycanın Mərkəzi Aran bölgəsində Kür çayının məcrasını aşaraq, sel fəlakəti yaşatmasının ardınca Prezident İlham Əliyev həmin bölgələrə səfər edərək, orada sakinlərlə görüşdü, onların problemləri ilə maraqlandı, dəyən ziyanın aradan qaldırılmasının dövlətimizin başçısının daim diqqətində olduğunu göstərdi, əhalinin yaşayış yerlərinə köçürülməsinə, evləri dağılan insanların mənzil problemlərinin həllinə başlandı. Artıq bu gün həmin bölgələrdə sözügedən problem yaşanmır, Azərbaycan dövləti bu problemlərin aradan qaldırılması üçün lazım olan bütün müvafiq tədbirləri həll edib, vətəndaşının yanında olub.

Prezident İlham Əliyev müxtəlif hadisələrdə - yanğınlar, dağıntılar, torpaq sürüşmələri, zəlzələlər və s. kimi hallarda da dərhal hadisələrin baş verdiyi yerlərə gedir, problemlərin həll olunması üçün xalqla görüşür, onlarla fikir mübadilələri aparır, problemlərini dinləyir və xalqın Prezidenti olduğunu əməli fəaliyyəti ilə sübuta yetirir.

### Mütərəqqi İnsanlıq reallığı

Zaqatala və Balakəndə, eləcə də Ağsuda baş verən zəlzələ nəticəsində zərər çəkmiş vətəndaşları ziyarət edən Prezident İlham Əliyev demək olar ki, onların hər biri ilə ayrı-ayrılıqda görüşdü, problemlərini dinlədi

ANALİTİK



və təbii fəlakətin qısa müddətdə aradan qaldırılması üçün müvafiq strukturlara tapşırıqlarını verdi. Lakin bu məqamda da diqqət çəkən amil o oldu ki, dövlətimizin başçısı yaşlı ananın evini ziyarət etdi, onunla səmimi söhbətini apardı və evinin yenidən, ən müasir standartlara uyğun şəkildə bərpa olunması göstərişini verdi.

Daha bir qürurverici faktor isə budur ki, xalqımızın Lideri bir müddət sonra yenidən həmin bölgələri ziyarət edərək, görüşlən işlərin yekunları və nəticələri ilə maraqlanır. Məhz bu reallıq Prezident İlham Əliyevin xalqına olan sonsuz sevgisinin sübutu və məntiqi nəticəsidir.

Bu da son deyil. Dövlətimizin başçısı torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ailələri ilə görüşlərində yaşlı ata və anaların yanına gedib, onların əllərindən öpməsi, öz əli ilə su içdirməsi, cəbhə bölgələrinə gedərək bilavasitə yaşananlarla maraqlanması kimi amillərin hər birinin arxasında MÜTƏRƏQQİ İNSANLIQ reallığı dayanmaqdadır.

## Bu dəfə də qalibiyyət bizimlə olacaq!

Bu gün dünyada koronavirus epidemiyasının tüğyan elədiyi bir zamanda Prezident İlham Əliyev xalqının yanındadır. Ölkədə görülən operativ və qabaqlayıcı tədbirlərin hər birinin təməlində vətəndaşın sağlamlığının mühafizəsi, sağlamlığı marağı dayanmaqdadır. Qısa müddətdə yeni xəstəxanaların açılması, pandemiya dövründə xəstəxanaların hazırlıqlı vəziyyətə gətirilməsi, xarici ölkələrdə qalmış vətəndaşlarımızın Azərbaycana geri gətirilməsi, karantin üçün nəzərdə tutulmuş yerlərin ən müasir standartlara uyğunlaşdırılması, yeni xəstəxnaların açılması, yaşları 65-dən yuxarı olan və risk qrupuna aid məhbusların əfvi və s. kimi faktların hər birində qeyd eidlən fikirlər dayanmaqdadır.





Artıq yüzlərlə vətəndaşlarımız dövlətimizin başçısına müxtəlif bölgələrdən minnətdarlıq məktubları ünvanlayır, bu məkburlarında dövlətin vətəndaşa göstərdiyi qayğıya görə təşəkkürlərini bildirirlər. Bu isə həm də belə nəticəyə gəlməyə kifayət qədər zəmin yaradır ki, dövlətlərin milli dəyərlər əmsalı sosial-iqtisadi inkişaf göstəriciləri ilə yanaşı, həm də siyasi hakimiyyətin xalqa xidmət səviyyəsi, cəmiyyət qarşısında götürdüyü öhdəliklərə sadiqliyi ilə müəyyənləşir. Xalqının eimadı və iradəsi ilə mandat almış hakimiyyət fəaliyyəti ilə daim ictimai etimadı doğrultmağa, hər bir vətəndaşın mənafeyinə hesablanan siyasi-hüquqi və sosial-iqtisadi islahatları həyata keçirməyə çalışır. Bu baxımdan, fəaliyyətinin əsas qayəsi xalqa və dövlətə sədaqətli, layiqli xidmət, ən əsası isə, milli dəyərlər kontekstindəki prinsipi üzərində qurulan Prezident İlham Əliyev hər zaman qazanılan nailiyyətlərdən bəhs edərkən böyük fəxrlə bildirir ki, bu uğurların əsasında məhz ölkədəki sağlam ictimai-siyasi mühit, xalqla iqtidar sarsılmaz birliyi dayanır. Elə bütün bunların səbəbidir ki, bu gün Azərbaycanda Prezident xalqına güvənir, xalq isə öz Liderinə inanır. Hər bir addımını xalqın mənafeyinə uyğun atması cənab İlham Əliyevə ümumxalq sevgisi qazandırıb.

## Prezident İlham Əliyev: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"

Beləliklə, faktlar həm də onu göstərir ki, daim xalqın yanında olmaq, onun çətinliklərini öyrənmək və problemlərin operativ həlli istiqamətində tədbirlər görmək Prezidentin iş tərzidir. İş qrafiki nə qədər zəngin və ağır olsa da, dövlət başçısı hər zaman xalqın marağını üstün tutaraq hər bir Azərbaycan vətəndaşının Prezidenti olduğunu təsdiqləyib. Azərbaycan xalqı da həmişə öz liderinə güvənib, ona ən güclü dayaq olub.

Göründüyü kimi, hər zaman siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanan Prezident İlham Əliyev atdığı addımlarla, verdiyi qərarlarla xalqın sevimli liderinə çevrilib. Dövlət başçısının məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi qlobal, genişmiqyaslı və çoxşaxəli iqtisadi siyasəti ölkəmizin müstəqilliyinin, iqtisadi tərəqqisinin təmin edilməsinə yönəlib.

Sonda isə, Prezident İlham Əliyevin müsahibələrinin birində irəli sürdüyü mühüm fikirlərini xatırlatmaq istərdim. O, qeyd edib ki, xalq-iqtidar birliyi hər bir ölkənin inkişafı üçün əsas şərtdir. Sabitliyin qorunmasının təminatçısı Azərbaycan xalqıdır: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Mən dəfələrlə bu barədə öz fikirlərimi bildirmişəm və bizim atdığımız addımlar dediklərimi sübut edir. Bizim imkanlarımız artdıqca, ilk növbədə, bu gün hələ də ağır vəziyyətdə, çətin şəraitdə yaşayan insanların yaşayış səviyyəsini yaxşılaşdırmağa çalışırıq. Son illər bu istiqamətdə çox böyük işlər görülmüşdür... Dövlət-vətəndaş münasibətləri sağlam zəmində qurulub. Azərbaycan vətəndaşı bilir ki, ən ağır vəziyyətdə Azərbaycan dövləti onun yanında olacaq. Dövlət isə tam əmindir ki, vətəndaş hər zaman dövlətin arxasında olacaq".

P.S. Bunu 16 il öncə Ulu Öndər Heydər Əliyev xalqa müraciətində də söyləmişdi: "Sizi əmin edirəm ki, İlham Əliyev bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Böyük Öndərimiz bu fikri ilə Azərbaycan xalqına onun alternativsiz siyasi kursunu davam etdirə biləcək ünvanı göstərmişdi. Çünki tam əmin idi ki, müstəqil Azərbaycanın işıqlı gələcəyi üçün müəyyənləşdirdiyi inkişaf konsepsiyasını məhz cənab İlham Əliyev uğurla davam etdirərək reallığa çevirə bilər və bu gün artıq Ulu Öndərimizin fikirləri öz təsdiqini tapır.

# “Azərbaycan Prezidenti postpandemiya dövrünün siyasi xəritəsinin ilk çizgisini çəkdi”

***Pandemiya elan olunan dövrdən etibarən - epidemiyanın qloballaşması və dünyəvi mərhələsinin rəsmiləşməsindən sonra dünya yeni psixoloji, iqtisadi və siyasi mərhələyə qədəm qoydu. Beynəlxalq proseslərin idarə olunması ilə məşğul olan mərkəzlər təbii ki, bu prosesin idarə olunması və sonrakı mərhələləri ilə ciddi məşğuldurlar. Əvvəlcədən nəzərdə tutulmuş və sonradan əlavə və dəyişiklərlə müşayiət olunan planların mövcudluğu heç şübhə doğurmur. Dünyəvi proseslər və beynəlxalq iqtisadi-siyasi təlatüm, kataklizm, idarə olunan və təbii proseslərə çevik reaksiya verən və nəzərə alan beynəlxalq birliyin üzvi olan Azərbaycan dövləti də sözsüz ki, nəinki bu proseslərdən kənarda qala bilməz, hətta fəal sürətdə milli maraqların bəşəri maraqlarla uzlaşdırılaraq inkişafında öz rolunu oynamaqdadır.***



**Rasim Quliyev, Resurs Analitik İnformasiya Mərkəzinin rəhbəri**

Bəşəriyyəti təhdid edən epidemiya ilə mübarizədə fəal rol oynamaqla regional və qlobal güc, olaraq aktiv siyasi, mənəvi və humanitar rol oynayan Azərbaycan dövləti bu bəşəri problemin həllində ardıcıl, planlı proqram üzrə fəaliyyəti ilə nümunəvi örnək olmaqdadır. Eyni zamanda mərhəmət hissinin, mənəvi dəyərlərin yüksəlməsi, cəmiyyətin birliyinin, əxlaq hissinin hümanizm yüksəlməsi baxımından təkcə ölkə daxilində deyil xarici aləmdə də nümunəvi qururverici nəticələr əldə olunur.

Sədrliyi Azərbaycanda olan Türk Şurası Azərbaycan Prezidentin timsalında bu yöndə də dünyada ilk örnək ola biləcək addımını atdı. Türk Şurasının pandemiya dövründə ilk videokonfrans- zirvə görüşü ölkəmizdə başlayan mənəvi birlik, mərhəmət hissinin yüksəlməsi, hümanizm prinsiplərinin, bir-birimizə kömək etməklə insani hisslərin bütün problemləri yenə biləcəyi prosesinin dünyaya açılması, dünyaya yayılması örnəyi oldu.

Amma Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının video bağlantı ilə zirvə görüşünün keçirilməsi heç də təkcə mənəvi dəyərlərlə məhdudlaşmır. Postpandemiya dövrünün formalaşdıracağı yeni siyasi-iqtisadi proseslərə Azərbaycanın ilk reaksiyası qabaqlayıcı tədbirlər planı və inkişaf edəcək programın bir hissəsi kimi baxmaq gərəkliyini düşünürük. Çünki yeni siyasi-iqtisadi dövrdə formalaşacaq yeni iqtisadi mühitdə Azərbaycan dövləti geosiyasi, geoiqtisadi mövqeyini möhkəmlətmək və meydana çıxacaq hər hansı yeni prosesdə, yeni güc mərkəzlərinin formalaşmasında öz önəmli yeri və rolunu gücləndirmək üçün fəaliyyətini genişləndirir. Bu məsələdə də hər zaman olduğu kimi Prezident İlham Əliyevin çevik, praqmatik və məntiqli, ardıcıl siyasət yürütməsi, təcrübəli, beynəlxalq siyasi prosesləri gözəl bilməsi və real dəyərləndirmək bacarığı və yüksək siyasi intiusiyası kimi bacarıqları ön plana çıxır.

## YAP-ın epidemiyaya qarşı fəaliyyətini regional miqyasda örnək hesab etmək olar

Qlobal pandemiyanın mövcud olduğu dövrdə cəmiyyətimizdə epidemiyaya qarşı mübarizədə milli birliyin, mənəvi dəyərlərin, humanizm hisslərinin yüksəlməsi, vətəndaş və insan amilinin ən qiymətli sərvət olduğunun təbliğində Azərbaycan Prezidentinin çağırışına dərhal səs verən və bu sahədə fəal iş aparan Yeni Azərbaycan Partiyasının fəaliyyətini təkcə ölkəmiz üçün deyil, həm də beynəlxalq nümünə kimi örnək saymaq olar.

Eyni zamanda bu fəalliyyət proqramı ilə Yeni Azərbaycan Partiyası xalqın etimadını haqq etməklə yanaşı, bu etimada cavabdehlik öhdəliyini də layiqincə qiymətləndirildiyini sübüt edir. Həm iqtidar partiyası kimi dövlətin və hökümətin bu sahədə apardığı rəsmi siyasət ilə, həm də bundan əlavə hər bir partiya üzvünün fəalının iştirak etdiyi maddi-mənəvi, maarifləndirmə və ideoloji işlərlə ciddi struktur fəaliyyəti ilə.

Yeri gəlmişkən qeyd olunmalıdır ki, Yeni Azərbaycan Partiyasının epidemiyaya qarşı fəaliyyətini təkcə ölkəmizdə deyil, regionda örnək və müqayisəolunmaz hesab etmək olar.

## Diplomların tanınmasına görə dövlət rüsumu ləğv edildi

Xarici ölkələrin ali təhsil müəssisələrinin diplomlarının tanınmasına görə 15 manat dövlət rüsumu ləğv edilir. SİA-nın məlumatına görə, bu, Milli Məclisin dünən keçirilən iclasında müzakirəyə çıxarılan “Dövlət rüsumu haqqında” qanuna təklif edilən dəyişiklikdə əksini tapıb. Qanuna təklif olunan dəyişikliklər “Təhsil haqqında” qanuna təklif olunan dəyişikliklərə uyğunlaşdırma xarakteri daşıyır. Xarici ölkələrin ali təhsil müəssisələrinin diplomlarının tanınması bir xidmət növü kimi müəyyən edildiyindən və həmin xidmətə görə xidmət haqqı tutulduğundan, “Dövlət rüsumu haqqında” qanunda müvafiq dəyişiklik edilir və xarici ölkələrin ali təhsil müəssisələrinin diplomlarının tanınmasına görə dövlət rüsumu ləğv edilir. Layihə səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib.

## Putin Qələbə bayramını təxirə saldı



Rusiya Prezidenti Vladimir Putin Sovet İttifaqının İkinci Dünya Müharibəsində faşist Almaniyasının məğlub edilməsinin 75 illiyi ilə əlaqədar keçiriləcək mərasimlərin təxirə salındığını açıqlayıb. SİA bunu xarici mətbuata istinadən xəbər verir.

Putin Covid-19 gündəliyi ilə Təhlükəsizlik Şurasını toplayıb. Hər il 9 May günü qeyd edilən Qələbə Günü mərasimlərinin və tədbirlərinin təxirə salındığını bildirən Putin “Zirvəyə çatmayan epidemiya ilə əlaqəli risklər, mərasimə və digər tədbirlərə hazırlıq prosesini başlatmaq imkanı vermir”, deyib.

Digər tərəfdən Putin Covid-19 epidemiyası ilə bağlı Çin prezidenti Şi Cinping ilə fikir mübadiləsi aparıb. Kremldən verilən məlumata görə, Covid-19 epidemiyasına qarşı mübarizədə qarşılıqlı əməkdaşlığın müzakirə edildiyi bildirilib.

## “Minnətdarlığın tək ünvanı Prezident İlham Əliyevdir”



“Tam əminliklə deyə bilərəm ki, Azərbaycanda görülən praflaktiki tədbirlər öz töhfəsini verir. Bizdə digər ölkələrdən, xüsusilə Avropa və Rusiyadan fərqli olaraq vəziyyət nəzarət altındadır. Biz bütün qüvvəmizlə çalışırıq ki, pandemiyaya yoluxanların və dünyasını dəyişənlərin sayı az olsun. Məhz buna görə də təsadüfi deyil ki, son bir neçə gündür ki, virusdan sağalanların sayı ona yoluxanların sayını üstələyib”. Bunu SİA-ya açıqlamasında politoloq Fikrət Sadıqov deyib.

Onun sözlərinə görə, bütün bu xəbərlər cəmiyyətdə müsbət reaksiya doğrur və bu müsbət reaksiya məntiqə əsaslanır: “Şübhə etmirəm ki, biz bu istiqamətdə səylərimizi gücləndirsək və məsələni nəzarət altında saxlamağa davam etsək, bu mürəkkəb vəziyyətdən tezliklə çıxacağıq. Burada bizim həm dövlətimiz, həm tibbi personalımız, xüsusilə həkimlərimizə ancaq çox sağol demək lazımdır. Çünki əsas təhlükəli xəttdə olan və bu məsələ ilə məşğul olan təbəqə bizim həkimlərimizdir”.

Politoloq vurğulayıb ki, belə bir vəziyyətin yaşanması və dövlət başçımız İlham Əliyevin təşəbbüsü ilə vaxtında və lazımı qərarların qəbul edilməsi öz müsbət nəticələrini verir: “Bütün bunların nəzdində adi, sıravi vətəndaşlar öz hisslərini və təşəkkürlərini minnətdarlıq məktubları ilə cənab Prezidentə ünvanlayıblar. Çünki real mənzərə onları sevindirir və təbii ki, minnətdarlığın tək ünvanı Prezident İlham Əliyevdir”.

## “Azərbaycan pandemiyaya çevik reaksiya verən ölkələrdəndir”

Koronavirus həm dünya, həm də iqtisadiyyat üçün gözlənilməz xarici amil oldu. Praktik olaraq bu, qlobal iqtisadiyyatda şok effektinə malik bir pandemiyadır. Bu sözləri AZƏRTAC-a Milli Məclisin deputatı Vüqar Bayramov deyib. O bildirib ki, ilkin qiymətləndirmələrə görə, pandemiyanın qlobal iqtisadiyyata mənfi təsirləri 3 trilyon dollardan çoxdur. Azərbaycan üçün də pandemiyanın iqtisadiyyatın fərqli sektorlarında təsirləri var. Təbii ki, Azərbaycan pandemiyaya çevik reaksiya verən və onun təsirlərini minimumlaşdırmaqla bağlı təcili qərar verən ölkələrdəndir. Bununla yanaşı, pandemiyanın nə qədər davam edəcəyini də proqnozlaşdırmaq mümkün deyil. Hətta postpandemiya dövrü ilə bağlı qlobal səviyyədə fərqli proqnozlar var. Pandemiyanın müddəti ilə bağlı fərqli proqnozlar olduğuna görə, çevik qərarlar verilir. Qərarlar pandemiyanın müddətinə, regionda qlobal yayılma coğrafiyasına uyğun dəyişir. Bu baxımdan Azərbaycanda da həm pandemiyanın təsirlərinin minimumlaşdırılması, karantin dövrü ilə bağlı qərarlar məhz koronavirusun yayılma miqyası və coğrafiyası ilə bağlı olacaq. Nəzərə alsaq ki, inkişaf etmiş ölkələrdə də karantinlə bağlı qaydalar və müddətlər mütəmadi dəyişdirilir və uzadılır. Bu da birbaşa onunla bağlıdır ki, pandemiyanın təsirlərinin proqnozlaşdırmaq mümkün deyil. Bu baxımdan Azərbaycan hökuməti də növbəti mərhələdə pandemiyanın yayılma dairəsinə uyğun olaraq çevik qərarlar verməkdə davam edəcək.



# Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib




Aprelin 17-də Azərbaycan Respublikası Milli Məclisinin yaz sessiyasının növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova aprelin 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirənin bir çox vacib məqamları ilə diqqəti cəlb etdiyini bildirib. Sədr deyib: "Prezident İlham Əliyev özünün dərin məzmunlu nitqində ölkə iqtisadiyyatının vəziyyətini və inkişaf perspektivlərini ətraflı təhlil etdi. Məmnunluqla qeyd olunmalıdır ki, birinci rübün göstəricilərinə görə ölkə iqtisadiyyatının əldə etdiyi nəticələr bütövlükdə müsbətdir. Əlbəttə, dünyanın bütün ölkələrində yaşanan koronavirus pandemiyası Azərbaycandan da yan keçməyib və sosial-iqtisadi həyatımıza mənfi təsir göstərməkdə davam edir. Amma mən əminəm ki, həyata keçirilən qabaqlayıcı tədbirlər və düşünülmüş siyasət həm insanlarımızın sağlamlığını qorumağa, həm də iqtisadiyyatımıza dəyən ziyanın sürətlə aradan qaldırılmasına imkan verəcək".

Sədr qeyd edib ki, dövlətimizin başçısı müşavirədəki nitqində ölkədə struktur islahatlarının davam etdirilməsi məsələlərinə də toxundu, icra orqanlarında, parlamentdə aparılan kadr dəyişikliklərini qeyd etdi. Prezident belə bir fikri də ifadə etdi ki, Prezident Administrasiyasında, Nazirlər Kabinetində və Milli Məclisdə aparılan ciddi islahatlar nəticəsində ölkəmiz indi yeni inkişaf mərhələsinə inamla qədəm qoyur və idarəetmədə təkmilləşmə göz qabağındadır. "Mən əmin etmək istəyirəm ki, altıncı çağırış Milli Məclisin birinci iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Məclisin işi ilə bağlı verdiyi tövsiyələr bundan sonra da ardıcıl yerinə yetiriləcək və ölkə parlamenti Azərbaycanın dayanıqlı inkişafının təmin edilməsinə yönələn strateji xəttin həyata keçirilməsinə öz töhfəsini verəcək", - deyə Sahibə Qafarova vurğulayıb.

Parlament Sədri bildirib ki, müşavirədə Prezident İlham Əliyev beynəlxalq ictimaiyyətin gündəmində olan bir çox mühüm məsələlərlə bağlı əsaslandırılmış, ciddi arqumentlərə söykənən münasibətini diqqətə çatdırdı. O cümlədən Prezident Avropa Şurası Parlament Assambleyasının Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma, cinayətkar rejimin keçirdiyi saxta "seçkilərə" münasibət bildirməməsini haqlı olaraq kəskin tənqid etdi. Sədr deyib: "Bilirsiniz ki, mən son on il AŞPA-da Azərbaycan nümayəndə heyətinin üzvü olmuşam, həmin qurumun Büro üzvü və Komitə sədri kimi fəaliyyət göstərmişəm. Bu dövr ərzində mən və mənim hörmətli həmkarlarım bir çox hallarda qurumda ölkəmizə qarşı qərəzli münasibətin şahidi olmuşuq. Avropa Şurası Parlament Assambleyasında cəmləşmiş ermənipərəst dairələrin Azərbaycana böhtan atmaq, ölkəmizi nüfuzdan salmaq üçün saxta qətnamələr və qərarlar qəbul etmək, Azərbaycanı qaralamaq cəhdlərini dəfələrlə müşahidə etmişik. Mən deyərdim ki, bəzən təşkilatdakı antiAzərbaycan, erməniperəst qüvvələr ermənilərdən də artıq onların maraqlarını müdafiə edirlər.

Bu gün isə Parlament Assambleyasının qondarma "Dağlıq Qarabağ respublikasındakı" cinayətkar rejimin keçirdiyi saxta "seçkilərə" münasibət bildirməməsi, susqunluq nümayiş etdirməsi qəbulolunmazdır. Hesab edirəm ki, bu, həm də beynəlxalq hüquqa qarşı çox böyük hörmətsizlikdir. Ona görə də, biz AŞPA-nın bu davranışını qəti şəkildə pisləyirik və bununla əlaqədar Milli Məclis tərəfindən Avropa Şurası Parlament Assambleyasına etiraz məktubu göndərilib".

Prezident İlham Əliyevin müşavirədəki nitqində ölkəmizdə yeni formalaşan siyasi konfiqurasiyanın və siyasi dialoq mühitinin gücləndirilməsi istiqamətində atılan addımları təqdir etdiyini vurğulayan Milli Məclisin Sədri bildirib ki, Azərbaycanda milli mənafedən, dövlətçilik maraqlarından çıxış edən bütün sağlam müxalifət partiyaları bu dialoqda iştirak edir, prosesə töhfə vermək üçün müvafiq addımlar atırlar. Çox təəssüf ki, hər zaman Azərbaycan dövlətçiliyinə, müstəqilliyimizə qarşı çıxış edən bəzi marginal qruplar bu dialoqdan imtina edib, xarici amilə bel bağlayıblar. Dövlətə qarşı düşmənçilik edən belə qrupların əsl məqsədi ölkəmizdə gərginlik yaratmaqdır. Özlərinə radikal müxalifət adını verən bu cür dağıdıcı qüvvələr hətta bütün bəşəriyyəti sarsıdan pandemiyadan və koronavirusdan belə öz məkrli niyyətlərini həyata keçirmək üçün istifadə etmək istəyirlər. Təbii ki, Azərbaycan cəmiyyəti, xalqımız bu cür davranışları görür və onların qeyri-sağlam, antimilli fəaliyyətini qətiyyətlə pisləyir. Azərbaycan xalqının mövqeyi bu yöndədir ki, ölkəmizdə yeni formalaşan siyasi konfiqurasiyada belə qüvvələrə yer yoxdur.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə xeyirxah bir kampaniyanın başladıldığını xatırladan Sədr deyib: "Xəstə insanlara kömək üçün qanvermə aksiyaları keçirilir. Mən belə düşünürəm ki, Milli Məclis də bu təşəbbüsə qoşulmalıdır. Biz bunun üçün Milli Məclisdə xüsusi yer ayırmışıq və həkim briqadası dəvət etmişik. Sabah Milli Məclisin binasında saat 12:00-dan etibarən Milli Məclisin deputatları və Aparatın əməkdaşları könüllü qan verə bilərlər. Aksiya barədə əlavə məlumatı Milli Məclisin Aparatından ala bilərsiniz.

Sahibə Qafarova Milli Məclisin ötən iclasda Nazirlər Kabinetinin hesabatının dinlənildiyini, ölkədə yaranmış epidemioloji vəziyyətlə əlaqədar olaraq Azərbaycan Respublikası Baş Nazirinin məruzəsinin videoyazı şəklində təqdim edildiyini diqqətə çatdırıb. Bildirib ki, Milli Məclisin iclasının bu hissəsinin stenoqramı və videoyazısı, eləcə də çıxış edə bilməmiş 31 deputatın çıxışlarının və suallarının yazılı mətnləri Nazirlər Kabinetinə göndərilib. Sonra plenar iclasda iyirmi dörd məsələdən ibarət gündəlik təsdiqlənib. Əvvəlcə Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənilib.

Məruzəni Ədliyyə nazirinin müavini Vilayət Zahirov təqdim edib. Nazir müavini qeyd edib ki, 2019-cu ildə Azərbaycan Respublikasının hərtərəfli inkişafına yönəlmiş strategiya Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilib, sosial-iqtisadi tərəqqi təmin olunub. Aparılan islahatlar dünyanın ən mötəbər iqtisadi qurumları tərəfindən yüksək qiymətləndirilib, Dünya Bankının "Doing Business 2020" hesabatına görə Azərbaycan 20 ən islahatçı ölkə sırasında yer alıb. Vilayət Zahirov deyib: "Ölkə həyatının bütün sahələrində olduğu kimi, yerli demokratiyanın inkişafında da uğurlar əldə edilib. Yerli özünüidarəetmənin təşkili və bələdiyyələrin formalaşmasının 20 ilinin tamam olması, eləcə də növbəti bələdiyyə seçkilərinin keçirilməsi ölkəmizin ictimai-siyasi həyatında baş verən mühüm hadisələrdəndir. Seçkilər nəticəsində 1.597 bələdiyyə üzrə 15.075 bələdiyyə üzvü seçilib. Qadınların sayı 5.847 nəfər (38,8 faiz), gənclərin sayı isə 6.012 nəfər (39,9 faiz) olub. Bələdiyyə üzvlərinin tərkibinin xeyli hissəsinin yeniləndiyi nəzərə alınaraq məqsədyönlü hüquqi maarifləndirmə işinin aparılması üçün xüsusi tədbirlər planı hazırlanıb".

Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov illik məruzəyə dair fikirlərini açıqlayıb, təkliflərini bildirib. Müzakirələr zamanı deputatlar Musa Quliyev, Sadiq Qurbanov, Elman Nəsirov, Azay Quliyev, Tahir Kərimli, Tahir Rzayev, Azər Badamov, Aydın Mirzəzadə, Fazil Mustafa illik məruzəyə münasibət bildiriblər. Çıxışlarda bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2019-cu ildə gördüyü işlər əsasən müsbət dəyərləndirilib. Bir sıra təkliflər səsləndirilib.

Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev qanunvericiliklə bağlı bəzi məsələlərə aydınlıq gətirib. Parlamentdə bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi nəzərə alınıb. Sonra iclasda gündəlikdəki digər qanun layihələrinin müzakirəsinə başlanıb.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli üçüncü oxunuşda müzakirəyə çıxarılmış üç qanun layihəsini təqdim edib. Bildirib ki, məqsəd ölkədə karantin rejiminin tətbiqi ilə əlaqədar qarşıya çıxa biləcək problemlərin həllidir. Layihələrdə parlamentin və komitələrinin iclaslarının videokonfrans sistemi vasitəsilə, onlayn rejimdə keçirilməsi nəzərdə tutulur. Bu məsələ "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə və "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Qanunda edilən dəyişikliklərlə tənzimlənəcək. Həmçinin "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Qanunun 4-cü maddəsinə karantin rejiminin tətbiqi ilə əlaqədar ölkə ərazisində sərbəst hərəkətə qoyulan məhdudiyyətlərin deputata, onun şəxsi və xidməti nəqliyyat vasitələrinə şamil edilmədiyi barədə 2-ci hissə əlavə olunur.

İclasda Aydın Mirzəzadə, Sabir Rüstəmxanlı, Razi Nurullayev rəylərini bildirdikdən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyulub və üçüncü oxunuşda qəbul edilib.

Plenar iclasda "Böyük Vətən Müharibəsində Qələbənin 75 illiyi (1945-2020)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi də (üçüncü oxunuş) məqsədəuyğun sayılıb. İclasda Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanunda edilən dəyişikliyin (birinci oxunuş) "Təhsil haqqında" qanuna uyğunlaşdırma xarakteri daşıdığını bildirib. Fikir mübadiləsində Bəhruz Məhərrəmovun rəyi dinlənilib. Layihə səsə qoyulub və birinci oxunuşda qəbul edilib.

Plenar iclasda "Sərhəd mühafizə orqanları haqqında", "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) məsələni Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov təqdim edib. Sonra Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev qanun layihəsinə münasibət bildirib. Hər iki komitə sədri nəzərə çatdırıb ki, bu layihə qanunvericiliyin uyğunlaşdırılması xarakteri daşıyır. Deputatlar qanun layihəsinə birinci oxunuşda müsbət münasibət bildiriblər.

Gündəlikdəki növbəti üç qanun layihəsini - Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) məsələləri Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov təqdim edib. Bildirilib ki, Cinayət və İnzibati Xətalar Məcəllələrində dəyişiklik edilməsinə dair qanun layihələri "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanının icrası ilə əlaqədardır. 200-ə yaxın dəyişikliyin nəzərdə tutulduğu qanun layihələri ölkədə cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması üzrə tədbirləri davam etdirmək məqsədilə hazırlanıb. Bu sənədlərdə mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində olan cinayətlərdə məsuliyyətin yaranmasına əsas olan dəymiş zərərin məbləğləri artırılmaq yolu ilə həmin həddə qədər olan əməllər dekriminallaşdırılmışdır.

Qeyd edək ki, "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanunun 10-cu maddəsində edilən dəyişiklik də 2019-cu il 3 aprel tarixli Prezident Fərmanı ilə əlaqədar olub, xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan vətəndaşının bu barədə ölkəmizin Xarici İşlər Nazirliyinə və Dövlət Miqrasiya Xidmətinə yazılı məlumat verməsi vacibliyini ehtiva edir. Fikir mübadiləsinin yekununda hər üç qanun layihəsi konseptual baxımdan məqbul sayılıb və ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Miqrasiya Məcəlləsindəki dəyişikliyi (birinci oxunuş) şərh edən Milli Məclis Sədrinin birinci müavini, komitə sədri Əli Hüseynli qeyd edib ki, Azərbaycanın ali və orta ixtisas təhsili müəssisələrində əyani formada və ümumi təhsil müəssisələrində təhsil alan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərlə yanaşı, təklif olunur ki, peşə təhsili müəssisələrində təhsil alan şəxslərə də Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazə verilsin. Həmçinin viza siyasətinin liberallaşdırılması ilə əlaqədar olaraq həmin şəxslərə viza verilməsi müddəti 15 günədək deyil, beş dəfə azaldılaraq 3 iş günü müddətində nəzərdə tutulur. Fikir mübadiləsində Ramil Həsən qeyd edib ki, bu qanun böyük rəğbətlə qarşılanacaq. Qanun layihəsi səsə qoyuldu və birinci oxunuşda qəbul edildi.

Deputatlar vergi orqanlarının vəzifəli şəxslərinin sosial müdafiəsinin gücləndirilməsini nəzərdə tutan "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi haqqında (birinci oxunuş) məsələyə də birinci oxunuşda müsbət yanaşıblar.

Parlament "Nağdsız hesablaşmalar haqqında" Qanunun 3-cü maddəsinə təklif olunan dəyişikliyi (birinci oxunuş) də müzakirə etdi. Bilavasitə kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı mülki hüquqi xarakterli müqavilələr əsasında mövsümi işlərə cəlb edilən fiziki şəxslərə gündəlik ödənişin nağd qaydada verilə bilməsini nəzərdə tutan layihə müsbət dəyərləndirilib. Layihəyə görə, həmin ödənişin yuxarı həddi 20 manat müəyyən edilir. Deputatlar qanun layihəsini birinci oxunuşda təsdiqləyiblər. Parlament hər iki qanunu birinci oxunuşda qəbul edib.

# 18 Aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür




**Aprelin 18-i dünyada Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü kimi qeyd olunur. Bu əlamətdar gün Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (ICOMOS) təklifi ilə UNESCO tərəfindən 1983-cü ildə təsis olunub. Məqsəd insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir.**

Bu əlamətdar gün Azərbaycanda da geniş qeyd olunur. Tarixi abidələr hər bir xalqın coğrafi məkanda min illər, əsrlər boyu formalaşdığını, təşəkkül tapdığını təsdiq edən əsas göstəricilərdir. Azərbaycan xalqının qədim mədəni sərvətlərindən söz açarkən onun tarix və memarlıq abidələrini xüsusi olaraq qeyd etməliyik. Azərbaycan mədəniyyətinin əhəmiyyətli nümunələri olan bu abidələr mədəniyyət tariximizin öyrənilməsində mühüm mənbələrdən sayılır. Tarix və mədəniyyət abidələrimiz xalqımızın minilliklər boyu bu torpaqlarda yaşadığını sübut edən, maddi və mənəvi həyatımızın, tariximizin daşlaşmış yadigarlarıdır.

Azərbaycan xalqının mədəni irsi kimi abidələr minilliklərin sənətkarlıq xüsusiyyətlərini, təfəkkür və düşüncə tərzini, dövrün mədəni mühitini bu günə daşıdığı üçün həm də bəşər mədəniyyətinin ayrılmaz bir hissəsi kimi beynəlxalq əhəmiyyət kəsb edir.

### "Tarix və mədəniyyət abidələri xalqın milli sərvətidir"

Ümummilli Liderimiz Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə xalqımızın tarixinin öyrənilməsi, tarixi-mədəni irsinin qorunub saxlanılması sahəsində mühüm işlər görülmüşdür. "Tarix və mədəniyyət abidələri xalqın milli sərvətidir", - deyən Ulu Öndərin rəhbərliyi ilə bu sahədə dövlət siyasətini həyata keçirmək üçün zəngin qanunvericilik bazası yaradılmışdır. Tariximizi, milli-mənəvi dəyərlərimizi əks etdirən tarix və memarlıq abidələrinin öyrənilməsi, təbliği, qorunması və gələcək nəsillərə çatdırılması o zaman uğurlu olur ki, bu məsələ ümumxalq işinə çevrilmiş olsun. Azərbaycan Respublikası Konstitusiyasında tarix və mədəniyyət abidələrini qorumaq hər bir vətəndaşın vəzifəsi kimi müəyyənləşdirilmişdir. 1998-ci ildə qəbul edilən "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununda da tarixi abidələrin qorunmasının dövlət təminatı, tədqiqi, mühafizəsi, qanunvericiliyin pozulmasına görə məsuliyyət öz əksini tapmışdır.

Bu gün Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev tərəfindən tarixi abidələrimizin bərpası, qorunması, tədqiqi və təbliği sahəsində mühüm işlər həyata keçirilir. Son illər tarix və mədəniyyət abidələrimizin bərpasına diqqət və qayğı artırılmış, dünya əhəmiyyətli abidələrin bir neçəsi YUNESKO-nun Dünya Mədəni İrs Siyahısına salınmışdır. Ölkə Prezidentinin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq olunan "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nda tarixi abidələrin qorunması, bərpası, öyrənilməsi və təbliği üzrə konkret tədbirlər həyata keçirilib.

### Dünya memarlığının ən gözəl inciləri

Abidələrin və tarixi yerlərin dağıdılması xalqın, millətin varlığının məhvi deməkdir. Ölkəmiz dünyada bəşər sivilizasiyasının ilkin meydana gəldiyi ərazilərdən biridir. Ölkəmizin ərazisində Manna, daha sonralar cənubda Atropatena dövlətinin yaranması nəticəsində şəhərlər salınıb, müdafiə tikililəri, əzəmətli qala divarları inşa edilib. Ümumiyyətlə, İslamdan əvvəl və sonra ölkəmizin ərazisində qiymətli abidələr inşa olunub. Orta əsrlərə aid abidələr Möminə Xatun, Qarabağlar, Gülüstan, Bərdə türbələri, Şirvanşahlar sarayı, Şəki xan sarayı, Şuşa şəhərinin abidələri və s. nəinki Şərq, hətta dünya memarlığının ən gözəl incilərindəndir.

Abidələrimizin və tarixi yerlərimizin məhv olmaq təhlükəsi ölkəmizin bəzi bölgələrindən də yan ötməyib. Torpaqlarımızın 20 faizini işğal etmiş Ermənistanın hərbi birləşmələri milli mədəniyyət abidələrimizi qəddarcasına dağıdıb. Erməni terrorçuları tərəfindən zəbt olunmuş qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji, bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi qalıb. Həmçinin bu ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisələri düşmən tapdağı altındadır.

Tarixi abidələrimizin qorunması və gələcək nəsillərə çatdırılması sahəsində dövlətimizin başçısı İlham Əliyevin, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ölkə daxilində və xaricində həyata keçirdikləri böyük işlər hər kəs üçün ən gözəl örnəkdir.

"İçərişəhər" memarlıq kompleksi, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib. Qobustandakı muzey isə 2013-cü ildə Avropanın ən yaxşı muzeyləri sırasında olub. Azərbaycan rəhbərliyinin böyük diqqət və qayğısı sayəsində ölkəmizdə tarixi abidələrin tədqiqi, mühafizəsi və bərpası, mədəniyyət nümunələrinin beynəlxalq aləmdə təbliği istiqamətində böyük işlər görülür.

**ZÜMRÜD BAYRAMOVA**

# Ermənistan diktatorluğun leqallaşmasına doğru...



***"Ermənistan təbliğatına və ümumiyyətlə, Ermənistanın münaqişə ilə bağlı mövqeyinə növbəti böyük zərbə bu yaxınlarda vuruldu. Bu zərbəni, əslində, onlar özləri özlərinə vurdular. Əlbəttə ki, bizim məqsədyönlü fəaliyyətimiz, beynəlxalq təşkilatlarla yaranmış əlaqələr bu zərbəni daha da gücləndirdi. Söhbət qondarma "Dağlıq Qarabağ respublikası"nda keçirilmiş qondarma "prezident"in qondarma "seçkiləri"ndən gedir".***

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 14-də 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirədə çıxışında deyib.

Dövlət başçısının sözlərinə görə, bu "seçkilər" bir daha göstərdi ki, bu qanunsuz xunta rejimini heç kim tanımır: ""Seçkilər"dən sonra bütün aparıcı beynəlxalq təşkilatlar bu seçkiləri tanımadı və açıq-aydın bəyanatlar səsləndi. ATƏT-in Minsk qrupunun həmsədrləri - Amerika, Fransa, Rusiya açıqlama verdi. ATƏT Parlament Assambleyası açıqlama verdi. Avropa İttifaqı, hətta bizə qərəzli mövqedə dayanan Avropa Parlamenti də açıqlama verdi. NATO, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Türk Şurası - bütün bu təşkilatlar dünyanın demək olar ki, mütləq əksəriyyətini cəmləşdirir. Qoşulmama Hərəkatında 120 ölkə, İslam Əməkdaşlıq Təşkilatında 50-dən çox ölkə, Avropa İttifaqında 30-a yaxın ölkə, ATƏT-də 50-yə yaxın ölkə. Bütün bu təşkilatlar bu "seçkiləri" tanımadı və bir daha göstərdilər ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Bu, bir daha göstərdi və mən bunu demişəm, bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ Azərbaycandır və nida işarəsi".

### Paşinyan koronavirus pandemiyasından da siyasi məqsədləri üçün istifadə etməyə başlayıb

Ermənistanın baş naziri Nikol Paşinyanın hakimiyyətdə olduğu bu iki il ərzində atdığı addımlara nəzər salsaq, pandemiyanın onun işinə necə yaradığına şahidlik edərik. Məhz bütün dünyada koronavirusla bağlı kütləvi tədbirlərin təxirə salındığı zamanda Paşinyanın təkidi və planı əsasında qondarma "DQR"-də saxta "parlament və prezident" seçkiləri keçirildi. Paşinyan öz adamını ora rəhbər təyin etmək üçün hətta ikinci tur şousuna belə getdi. Ermənistan kimi kiçik ölkədə karantinlə vəziyyətə nəzarətin mümkünlüyü olduğu halda, o, ölkədə fövqəladə vəziyyət elan etdi. Son qərarı isə siyasi rəqiblərini bu adla işdən azad etmək oldu.

Erməni mediasının yaydığı məlumata görə, Ermənistan prezidenti Armen Sarkisyanın fərmanı və baş nazir Nikol Paşinyanın təklifi ilə İtaliya və Maltadakı səfir Viktoriya Bağdasaryan geri çağrılıb. Qeyd edək ki, koronavirus səbəbilə Ermənistanın Braziliyadakı səfiri Aşot Qaloyan da geri çağırılıb. Hər iki səfirin köhnə komandanın adamı olduğu söylənilir. Paşinyana müxalif mövqedə olan erməni KİV-i hökumətin bu qərarlarını kəskin tənqid edir. Lakin bütün bunlara baxmayaraq, Ermənistanın məsuliyyətsiz faşist xislətli rəhbərliyi Dağlıq Qarabağdakı qondarma rejim "seçki"nin ikinci turunun keçirilməsinə belə, "yox" deməyib. Bax budur, N.Paşinyan siyasətinin biabırçılığı. Bu, Ermənistan rəhbərliyi üçün siyasətin insan həyatından üstün olduğunun göstəricisidir!

Lakin bu da faktdır ki, bu gün Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını Ermənistan istisna olmaqla, bütün beynəlxalq birlik tanıyır. Heç bir dövlət qondarma qurumun müstəqilliyini qəbul etmir. Odur ki, Yerevanın Dağlıq Qarabağdakı qondarma rejimi legitimləşdirmək istiqamətində atdığı addımlar mənasızdır. Ermənistan sözügedən "seçkilər"i də bu qondarma qurumu "müstəqil, demokratik respublika" kimi təqdim etmək məqsədilə keçirir.

### Hikmət Hacıyev: "Dağlıq Qarabağda qanunsuz "seçkilər"lə bağlı 120 dövlət Azərbaycanın suverenliyini dəstəkləyib"

"Beynəlxalq ictimaiyyət Azərbaycanın işğal altında olan torpaqlarında keçirilmiş "seçkilər"i tanımadı". Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın mətbuat konfransında Azərbaycan Prezidentinin köməkçisi ? Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib. O bildirib ki, qanunsuz "seçkilər"lə bağlı 120 dövlət Azərbaycanın suverenliyini dəstəkləyib. H.Hacıyev qeyd edib ki, koronavirus pandemiyasının yayıldığı dövrdə bu cür "seçkilər"in keçirilməsi açıq şəkildə Ermənistan və qondarma rejimin xislətini bir daha göstərib: "Koronavirusa baxmayaraq, onlar öz çirkin oyunlarını davam etdirib, qondarma "seçki şousu" etdilər. Bu, onların çirkin niyyətini qabarıq şəkildə göstərdi".

Bu vəziyyətdə, Paşinyan hətta qondarma qurumdakı mövqelərini də saxta "seçki" ilə bərkitdi. Son mərhələdə isə keçmiş hakimiyyətin dönəmində təyinat alan səfirləri geri çağırır. Çox absurd bir qərardı. Dünyanın hələ heç bir ölkəsində koronavirusa görə hansısa səfiri geri çağırmayıblar. Bu addımları pandemiya ilə bağlamaq sadəcə gülüncdür. Hamısında siyasi məqsəd var. Məqsəd - bununla Paşinyan öz siyasi rəqiblərini neytrallaşdırır və hakimiyyətinin təhlükəsizliyini qoruyur. Bu bir daha sübut edir ki, Ermənistanda siyasi addımlar xalqın təhlükəsizliyi üçün deyil, hakimiyyətin qorunması məqsədilə atılır.

Deməli, Paşinyanın hakimiyyətdə mümkün qədər çox qalmaq həvəsi onu ağılsız tədbirlərə əl atmaqdan da çəkindirmir. Bu yolda o, hətta erməniləri yeni mənasız qırğına verməyə də hazırdır. Oyuncaq "DQR"-in "referendum"u ilə tarixdə əsrlərlə "Qarabağ" yazılan və bu adla da tanınan Azərbaycan ərazisinin adını dəyişməklə görəsən nə deyişəcək?

Şübhəsiz bu gün bütün bu oyunların qarşısında güclü Azərbaycan Ordusu durur - məqamı gələndə Ordumuz öz sözünü deyəcək və Dağlıq Qarabağda Azərbaycan qanunları bərpa ediləcək. Və nə qədər ki, Ermənistan Azərbayanın işğal altındakı torpaqlarını azad etməyəcək və o torpaqlarda qanunsuz seçki oyunu keçirəcək, bir o qədər ağır iqtisadi, siyasi mərhumiyyətlərə, məşəqqətlərə düçar olacaq, istəkləri də ürəylərində qalacaqdar.

**A.SƏMƏDOVA**

# DSX müsabiqə elan edir

***Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti "Müqəddəs Sərhədlərimizin keşiyində" mövzusunda yaradıcılıq müsabiqələri elan edir. SİA həmin müsabiqənin şərtlərini təqdim edir: Müsabiqənin keçirilməsində əsas məqsəd gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması, cəmiyyətimiz üçün sağlam düşüncəli gənclərin yetişdirilməsi, onların Vətənimizin müqəddəs sərhədlərinə hörmət ruhunda tərbiyə olunması, sərhədçi peşəsinə marağın artırılması, sərhəd xidmətinin xüsusiyyətlərinin və əhəmiyyətinin ictimaiyyətə çatdırılması, sərhədlərimizin mühafizəsi sahəsində əcdadlarımızdan miras qalmış milli-mənəvi dəyərlərin, ənənələrin yaşadılmasıdır.***

Müsabiqə "Müqəddəs sərhədlərimizin keşiyində" mövzusunu özündə əks etdirən mahnı, dekorativ-tətbiqi sənət (bədii tikmə, toxuma, əlvan metal üzərində döymələr, taxta üzərində oyma və yandırma işləmələri), təsviri sənət (rəngkarlıq), bədii ədəbiyyat (şeir, hekayə), qəzet məqaləsi və inşa yazısı nominasiyaları üzrə keçirilir.

Müsabiqənin şərtləri:

1. Müsabiqədə mahnı, dekorativ-tətbiqi sənət (bədii tikmə, toxuma, əlvan metal üzərində döymələr, taxta üzərində oyma və yandırma üsulu ilə işləmələr), təsviri sənət (rəngkarlıq), bədii ədəbiyyat (şeir, hekayə), qəzet məqaləsi nominasiyaları üzrə yaşından asılı olmayaraq bütün yaradıcı şəxslər, inşa yazısı nominasiyasında isə sərhədyanı rayonların orta məktəblərinin şagirdləri iştirak edə bilərlər.

2. Mahnı, dekorativ-tətbiqi sənət, təsviri sənət, bədii ədəbiyyat və qəzet məqaləsi üzrə təqdim olunan işlər üzərində müəllif barədə məlumatlar göstərilmir. Həmin məlumatlar anketdə əks etdirilir (anketin forması qaydaya əlavə olunur) və zərfə qoyulur. Əl işlərinin arxasında və zərfin üzərində şərti ad qeyd olunur və aşağıdakı qaydada təqdim olunur:

2.1. şeir, hekayə və qəzet məqaləsi nominasiyalarında iştirak edənlər yazılarını çap elektron formada (CD diskdə, Arial 12 şriftlə);

2.2. mahnı müsabiqəsi nominasiyasında iştirak edənlər musiqi əsərlərinin sözlərini və notlarını yazılı formada, tam mətnli musiqisini isə DVD diskdə;

2.3. dekorativ-tətbiqi sənət üzrə təqdim edilən əl işlərinin ölçüləri 90 x 70 santimetr ölçüdən az olmamalıdır;

2.4. rəngkarlıq üzrə əsərlər kətan parça üzərində çəkilməli və çərçivəyə salınmalı, 90 x 70 santimetr ölçüdən az olmamalıdır;

2.5. inşa yazısı 12 vərəqli dəftərdə, göy rəngli qələmlə yazılmalı, dəftərin üz hissəsində şagird haqqında məlumat (şagirdin soyadı, adı və atasının adı, rayon və məktəb haqqında məlumat və əlaqə telefonu) qeyd olunmalıdır. Müsabiqənin keçirilməsi və qiymətləndirilməsi üçün hərbi hissələrdə rayon təhsil şöbələri ilə birgə xüsusi komissiyalar yaradılır. Komissiyalar 3 (üç) ən yaxşı inşa yazısını qiymətləndirir.

3. Müsabiqəyə təqdim edilən bütün əsərlər və əl işləri müvafiq qaydada doldurulmuş anketlə birlikdə 2020-ci il iyun ayının 30-dək Dövlət Sərhəd Xidmətinin Şəxsi Heyət üzrə Baş İdarəsinə təqdim edilməlidir (Bakı şəhəri, Zərifə Əliyeva küçəsi 30).

4. Təqdim olunan bütün əsərlərdə (əl işlərində) Azərbaycan Sərhəd Mühafizəsi tərənnüm edilməli, əsərlər (əl işləri) müsabiqəyədək heç bir yerdə çap, nəşr və yaxud nümayiş etdirilməməlidir.

5. Dövlət Sərhəd Xidmətinin, Təhsil Nazirliyinin, Azərbaycan Rəssamlar İttifaqının, Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Bəstəkarlar İttifaqının və Mətbuat Şurasının nümayəndələrindən ibarət komissiya yaradılır, komissiya hər nominasiya üzrə 3 (üç) ən yaxşı əsəri seçir, qalibləri müəyyən edir.

6. Müsabiqənin nəticələri Azərbaycan Sərhəd Mühafizəsinin 101-ci ildönümü ərəfəsində elan ediləcəkdir.

7. Müsabiqə ilə bağlı yaranmış suallarla iştirakçılar hərbi hissələrin şəxsi heyət üzrə şöbələrinə və Dövlət Sərhəd Xidmətinin Şəxsi Heyət üzrə Baş İdarəsinə müraciət edə bilərlər (012-498-01-29; 012-498-01-55).

**Müsabiqə qalibləri üçün aşağıdakı mükafatlar təsis olunur:**
**Mahnı müsabiqəsi üzrə:**
I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**Dekorativ-tətbiqi sənət üzrə:**
**Bədii tikmə və toxuma**
I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**Dəmir (əlvan metal) üzərində döymələr**
I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**Taxta üzərində oyma və yandırma**
I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**Təsviri sənət üzrə:**
**Rəngkarlıq**
I yer - 1-ci dərəcəli diplom və 700 (yeddi yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 600 (altı yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı.

**Bədii ədəbiyyat üzrə:**
**Şeir**
I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**Hekayə**
I yer - 1-ci dərəcəli diplom və 500 (beş yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**Qəzet məqaləsi üzrə:**
I yer - 1-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 350 (üç yüz əlli) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

**İnşa yazısı üzrə:**
I yer - 1-ci dərəcəli diplom və 400 (dörd yüz) manat pul mükafatı;
II yer - 2-ci dərəcəli diplom və 350 (üç yüz əlli) manat pul mükafatı;
III yer - 3-cü dərəcəli diplom və 300 (üç yüz) manat pul mükafatı.

Müsabiqə iştirakçısının anketi (nümunə)

______________________________________________
(soyadı, adı, atasının adı)
Doğum tarixi (gün, ay, il) və yeri__________________
T ə h s i l i
______________________________________________
İş yeri, vəzifəsi ______________________________
Ünvan, telefon (ev, iş, mobil) ____________________
Müsabiqəyə təqdim olunan işlər
1. ____________________________________________
2. ____________________________________________
(əsərin adı)
İşi təhvil verdi: _______________________________
İşi təhvil aldı: ________________________________

## Evdən qızıl-zinət əşyaları oğurlayan qadın yaxalanıb

Abşeron rayonunda oğurluqla məşğul olan qadın saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Abşeron Rayon Polis İdarəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində aprelin 11-də rayon ərazisindəki evlərin birindən 1200 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Xırdalan şəhər sakini A.Rüstəmova yaxalanıb. Faktla bağlı araşdırmalar davam edir.

## Valideyn himayəsindən məhrum olmuş uşaqlara yaşayış sahələri veriləcək



Azərbaycanda valideyn himayəsindən məhrum olmuş uşaqlara yaşayış sahələri veriləcək. SİA-nın xəbərinə görə, bununla bağlı "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanuna dəyişiklik Milli Məclisin dünən iclasında müzakirəyə çıxarılıb.

Dəyişikliklə sosial müdafiəyə ehtiyacı olan aztəminatlı gənclərə aid olan valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara Azərbaycan Respublikasının Mənzil Məcəlləsi ilə müəyyən edilmiş qaydada sosial kirayə müqaviləsi əsasında yaşayış sahələri veriləcək. Müzakirələrdən sonra qanun layihəsi səsverməyə çıxarılaraq qəbul edilib.

## "Porsche"-nin sahibi karantin rejiminin qaydalarını pozduğu üçün saxlanılıb

Cəlilabad sakini Siruz Kərimov şəhər ərazisində "Porsche" markalı avtomobili idarə edərkən xüsusi karantin rejimi qaydalarının tələblərinə əsasən polis əməkdaşları tərəfindən saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Lənkəran regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, bu zaman onun icazə sistemində qeydiyyatdan keçmədən karantin qaydalarını pozduğu müəyyən edilib. Lakin S.Kərimov polis əməkdaşlarının qanuni tələblərinə riayət etmədiyindən Cəlilabad Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən saxlanılaraq Rayon Polis Şöbəsinə gətirilib. Həmin şəxs barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri ilə protokol tərtib edilərək baxılması üçün rayon məhkəməsinə göndərilib.

## Gəncədə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxs tutulub

Daxili işlər orqanlarının əməkdaşları tərəfindən narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri qətiyyətlə davam etdirilir. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Gəncə şəhər sakini T.Bayramov Nizami (Gəncə) Rayon Polis İdarəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində saxlanılıb. Şəxsi axtarış zamanı ondan 475 qram marixuana aşkar edilərək götürülüb. Faktla bağlı araşdırma aparılır.

# Hafiz Hacıyev: “Əli Kərimli kimi koronavirusdan betər mənəviyyatsızlar qırılsa yaxşıdır”



***“Xüsusilə bu günlərdə Prezident İlham Əliyevin video-müşavirədə ciddi məsələlərə toxunması və onlardan ən başlıcası siyasi ishatların aparılması, ölkədə gedən siyasi proseslərlə iqtisadi proseslərin uzlaşdırılması və müxalif partiyaların qanunvericilik hakimiyyətində iştirakı məsələsi ilə bağlı bu satqın və əxlaqsızların yenidən sosial şəbəkələrdə böhtan xarakterli çıxışlar etməkdədirlər. Ancaq hələ də anlamırlar ki, xalq onları çoxdan arxivin zibilxanasına atıb. Çünki xalq ölkə başçısın hakimiyyətdə olduğu son 16 il ərzində hər bir vətəndaşın qayğısına qaldığının şahidi olub. Və bu gün də hesab edirəm ki, dünyanı ağuşuna alan koronavirus pandemiyası ilə bağlı görülən işlər və atılan addımlar müsbət haldır və hər bir Azərbaycan vətəndaşı ölkə başçısının gördüyü işlərin şahididir”.***

Bunu Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev özünün dediyi kimi, dünyanı ağuşuna alan koronavirus pandemiyasından istifadə edərək ölkədə sabitliyi pozmaq istəyən AXCP Əli Kərimlinin, Müsavat Partiyasının başqanı Arif Hacıyevin, “Milli Şura”nın əl kuklası Cəmil Həsənlinin, müxalifətin minsifətlisi Gültəkin Hacıbəylinin fəaliyyəti ilə bağlı SİA-ya verdiyi açıqlamasında deyib.

Partiya sədri koronavirus pandemiyasından istifadə edərək ölkədə sabitliyi pozmaq istəyən qüvvələrə, həmçinin xəbərdarlıq da edib: “Bilirsiniz ki, Cənab Prezident video-görüntülü müşavirə keçirdi, ciddi məsələlərə toxundu və onlardan ən başlıcası siyasi ishatların aparılması, ölkədə gedən siyasi proseslərlə, iqtisadi proseslərin uzlaşdırılması və müxalif partiyaların qanunvericilik hakimiyyətində iştirakı məsələsi oldu. Son aylar aparılan islahatlar həqiqətən də təqdirəlayiq haldır və Cənab Prezidentin şəxsən Özünün fəaliyyəti nəticəsində ortaya qoyulan müsbət işlərdir. Ölkədə parlament seçkiləri keçirildi və bəzi partiyaların sədrləri mandat qazandılar. Bu, müsbət hal kimi dəyərləndirilməlidir. Düşünürəm ki, qarşıda da görüləcək işlər var və bunları həyata keçirmək üçün xalqla dövlət arasında müəyyən birlik olmalıdır və bunu da yaratmaqdan ötrü ölkə başçısı mart ayında bayram təbriki zamanı çıxışında ölkədə siyasi partiyalarla dialoqların aparılması məsələsinə toxundu və bunlar da həyata keçmək üzrədir. Partiya sədri olaraq mən də burda iştirak edirdim. Ancaq bu tədbirdə iştirak etməyənlərin məqsədi ölkədə ictimai-siyasi vəziyyətə qarşı çıxmaqdır. Çünki bunlar -Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli kimi viruslar xaricdən idarə olunanlardır. Və keçirilən müşavirədə ölkə başçısının onları “beşinci kolon” adlandırmaqla bir daha göstərdi ki, xalq beləlırini çoxdan tarixin zilxanalarına atıb. Ölkə başçısının son dövrlər apardığı islahatlar, koronavirusla bağlı görülən tədbirlərin çox müsbət sonluqla nəticələndiyini qəbul etməyən bu virusların məqsədi Azərbaycanda hamının xəstəliyə tutulmasını arzulamaq və öz çirkin əməllərini həyata keçirməkdir. Ancaq Azərbaycan xalqı ağıllı xalqdır, ağı qaradan seçməyi bacarır. Özünüz də bilirsiniz ki, bunları xaricdə olan müəyyən dairələr idarə edirlər. Axşama kimi təhqirlə, populist çıxışlarla Azərbaycan xalqını aldatmaq istəsələr də, buna nail ola bilməyiblər və nail ola bilməyəcəklər. Çünki ölkəsini, ailəsini qrantlara satan Sevinc Osmanqızı kimi mənəviyyatsızların həftənin 7 günün 6-sında satqın və cinayətkar ermənixislətli Əli Kərimlini kanalına çağırması, Azərbaycan dövlətinin əleyhinə həqarətlər yağdırması qəbuledilməzdir. Təəccüb də etmirəm, çünki satqın satqının yanında olar. Və düşünürəm ki, xaricdə özünü bloger adlandıran belə satqın və mənəviyyatsızlara qarşı tədbir görülməlidir. Onlar anti-təbliğat aparmaqla insanların beyinlərini yeyirlər. Koronavirusun ölkədə daha da ağırlaşmasını arzu edən qüvvələr özləri bilərəkdən karantin rejimini pozurlar və polis tədbir görəndə isə “siyasi məhbus” adıyla xaricdə təbliğat aparmağa başlayırlar. Yəni bizim düşmənlərimiz çoxdur, həm xaricdə, həm də daxildə. Belə naqislər Azərbaycan dövlətinə çox böyük zərbələr vurmağa çalışırlar. Biz isə bunlara imkan verə bilmərik, çünki ölkədə aparılan siyasi, iqtisadi islahatlar yarımçıq qala bilər. Bu işlərin həyata keçirilməsi üçün bizə ciddi sabitlik lazımdır. Ölkə başçısının müşavirədə qaldırdığı məsələləri biz bir partiya olaraq dəstəkləyirik, həmin qüvvələrə xəbərdarlıq edərək bildiririk ki, çəkilib yerlərində otursunlar”.

H.Hacıyev onu da vurğulayıb ki, Prezident İlham Əliyev müşavirədə bu satqınların tarixin zibilxanasına 27 il əvvəl atıldığını deməklə, bir daha kim olduqlarını sübut etdi. Prezident bildirdi: “Mən hər şeyi öz adı ilə çağırıram. Əgər kimsə xalqımıza, dövlətimizə düşmənçilik edirsə, onun bir adı var - düşmən. Hər kəs bunları belə də çağırmalıdır. Bunların indiki arzuları da gözlərində qalacaq”.

Partiya sədri həmçinin, dövlət başçısının atılan uğurlu addımlara qara don geydirənləri xalqa qarşı düşmənçilik mövqeyində oluğunu deyərək, vurğulayıb ki, beləlri xalqın bir nömrəli düşmənidir: “Prezident İlham Əliyev çıxışı zamanı da bildirdi ki, bu düşərgədə cəmləşən insanlar uzun illərdir iqtidara qarşı yox, dövlətimizə, xalqımıza qarşı çirkin mübarizə aparırlar. Onların əsas məqsədi vəziyyəti gərginləşdirməkdir. Ölkəmiz üçün, xalqımız üçün nə qədər pisdirsə, onlar üçün o qədər yaxşıdır”.

H.Hacıyev bildirib ki, koronavirus tuğyan etməsi, görünür bunlar üçün sanki, göydəndüşmə bir “hədiyyədir”: “Ancaq anlamırlar ki, xalq bu gün öz Prezidenti ilə birdir. Çünki bilik olan yerdə gücülü olursan. Və bu gücün qarşısında Vətənimiz, dövlətimiz daha da güclü olur.

**Rəfiqə Hüseynova**

# Sabunçuda qəza törədib hadisə yerindən qaçan sürücü tutulub



Yol qəzasını törədərək hadisə yerindən yayınmaqda şübhəli bilinən şəxs tutulub. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, aprelin 15-də saat 20:00 radələrində Sabunçu rayonunun Bakıxanov qəsəbəsi ərazisində müəyyən edilməmiş avtomobillə yolu keçən Bakı şəhər sakini A.Vlasova vurulub və o, xəstəxanaya yerləşdirilib.

Sabunçu RPİ 13-cü PB əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində yol qəzasını törədərək hadisə yerindən yayınmaqda şübhəli bilinən “KİA” markalı avtomobilin sürücüsü, Bakı şəhər sakini T.Tağıyev müəyyən edilərək saxlanılıb.



RƏFİQƏ

# Cəmil Həsənli hər dəfə əsl sifətini göstərir...

***Belə bir söz var: insanın bir sifəti olar. Bu günlərdə jurnalist Eynulla Fətullayevin sosial şəbəkədə AXCP sədri Əli Kərimli ilə bağlı yazısını oxuyarkən dedikləri ilə tam şərik olduğumu bildirdim. E.Fəttullayev yazır ki, “siyasətçi ikiüzlü tərzdə yalan danışa bilərmi?! Yalan danışmalı, ya danışmamalı - budur bütün məsələ. Dünyamız qədər əbədi olan bu dilemma mənəviyyatçılarla makiavelliçiləri az qala keçilməz barrikadalar kimi ayırıb. Lakin biz hamımız, demək olar ki, siyasətdə makiavelliçilərin çoxluğu ilə barışmışıq, teatr səhnəsindəki bütün aktyorları ya şir, ya da tülkü kimi qəbul edirik. Azərbaycanın siyasi səhnəsində məğrur və əyilməz şirlərdən daha çox kürən və hiyləgər tülkülər var-gəl edir. Makiavelliyə görə, nağıllarda və elə təbiətdə olduğu kimi, tülkü siyasətçi kişiliyi və şərəfi deyil, qəddar yalanı simvolizə edir”.***

Bəli, bu gün satqın Əli Kərimli, Cəmil Həsənli, İsa Qəmbər, Arif Hacılı, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı və bu kimi ikiüzlü kürən, hiyləgər, şərəfsiz, əxlaqsız, mənəviyyatsız makiavelliçiləri var. Və özlərini “lider” sayan bu satqınlar hətta, özlərini “görkəmli, tarixi şəxsiyyətlərə” bənzədirlər. Ən çox da üz-gözündə əxlakqsızlıq cizgiləri aydın şəkildə görünən mənəviyyatsız Əli Kərimli, Cəmil həsənli, Arif Hacılı, Gültəkin hacıbəylilər bu iddia ilə çıxış edir və özlərinə layiq olmadığı uğurlarına və siyasi həyatlarına görə borclu olduğu liderin üstündən qalın xətt çəkir, əsl sifətlərini göstərirlər.

Xüsusilə də son günlər özlərini “müxalifət” adlandıran və “Mili Şura”nın “ağsaqqalı”, daha doğrusu”, əl kuklası kimi idarə olunan sədri Cəmil Həsənli yenə də özünə hörmət qoymayaraq bambılı kimi düşüb ortaya. Hər zaman belə olub, indi də belə bir dövrdə - dövlətin koronavirusla mübarizədə bir sıra və ardıcıl, önəmli addımlar atması və nəticədə xalqımızın öz dövlət başçısı ətrafında həmrəylik göstərməsinə belə qısqanclıqla yanaşan Əli Kərimli, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Sevinc Osmanqızı, Qənimət Zahid kimi min sifətli satqınlar və onların xaricdəki havadarları sadəcə və sadəcə erməni dəyirmanına su tökməklə məşğuldular. Belə ki, bu satqınların Azərbaycan hakimiyyətini koronavirus pandemiyasının yayılmasının qarşısını alınması məqsədi ilə ölkəmizdə tətbiq olunan ciddi karantin rejimindən siyasi maraqları üçün istifadə etməsi ətrafında sərsəm iddiaları ictimaiyyət tərəfindən ciddi nifrətlə qarşılanır və onlara qarşı ciddi tədbir görülməsini tələb edirlər. Ən nifrət doğuran isə, dövlətin koronavirusla mübarizədə atdığı ardıcıl və önəmli addımlardan yerində qıvrıla-qıvrıla qalan C.Həsənlinin ardıcıl olaraq sosial şəbəkələrdən sərsəm fikirlər səsləndirərək bildirir ki, “evdə qalmaqla “problemlər həll olunmur. Bunun çıxış yolu mitinqlərdir”. Nə qədər gülünc və istehza doğuran “çıxış yolu”. Ay bədbəxt C.Həsənlli, 27 ildir ki, mitinq keçirisiniz, hansı “problemi həll” etmisiniz?. Bu təəccüb də doğurmur. Çünki istər Ə.Kərimli, istər C.Həsənli, istər G.Hacıbəyli və digər satqınlar anti-Azərbaycan mövqedə dayanan və xaricdən istiqamətləndirilən, proqramlaşdırılan, maliyyələşdirilən subyektlərdir və xüsusilə də, bu gün C.Həsənlinin sosial şəbəkələrdə Azərbaycan dövlətinin apardığı önəmli addımlarına qarşı böhtanlı fikirlər səsləndirməsi bir daha onun bütün eybəcərliklərini, anti-Azərbaycan mövqedə durduğunu tam çılpaqlığı ilə nümayiş etdirməkdədir. Doğurdan da, insanda abır-həya yaxşı şeydir. İnsan özünün ləyaqətinə hörmət etməlidir. Ancaq C.Həsənli kimilər “insan” ola bilməz.

Fransız psixoloq Julyer iddia edir ki, insanlarda satqınçılıq və xəyanət simptomları bir dəfə formalaşırsa, bu sistemli şəkildə davamlı olur və ətraf mühitə ikrah yaranır. Bu məntiqlə yanaşsaq aydın olur ki, bu gün müxalifət, o cümlədən C.Həsənli illərdi ki, eyni mühitdə qalıb, zaman-zaman bir-birilərinə xəyanət ediblər və demək olar ki, artıq bir periodiklik yaranıb və bu koronavirusdan da güclü virusdur ki, bunun qarşısını almaq sadəcə mümkün deyil. Necə ki, bu gün AXCP sədri Əli Kərimli və “Milli Şura” sədri Cəmil Həsənli bu gün bir-birilərinə “tərif” deyir, az keçməmiş başlayırlar quyu qazmağa. Bu da təəccüb doğurmur, çünki xəyanətkar xəyanətkarın yanında olar. Və bu yerdə Cəmil Həsənli, heç olmasa öz yazdığın “Ağ ləkələrin qara kölgəsi” çızma qarasını gözünün qabağına gətirə. Ancaq gətirə bilmirsən, çünki, sənin kimi Əli Kərimli də xəyanət, qisaslar, intriqalar toplusudur. AXCP sədri Əli Kərimli və onun “banditos” dəstəsi Vətəndən, millətdən və demokratiyadan çox danışsalar da, həmişə sözləri əməllərinə zidd olub. Əli Kərimlinin siyasi karyerası, əslində, sonsuz xəyanətlər, qisaslar, intriqalar toplusudur: o, Azərbaycanda hakimiyyətə gəlmək üçün ölkənin və millətin düşmənləri ilə də separat danışıqlar aparıb, sövdələşib, “maliyyə dəstəsi” və qrantlar qismində paylar alıb, üzərinə öhdəliklər götürüb, sonra hakimiyyətlə danışıqlara can atıb, yenə vədlər verib - amma sonda hamını aldatmağa çalışıb.

Bax, budur həqiqət. Ona görə də, Azərbaycan xalqı koronavirus epidemiyasından çıxdıqdan sonra dövlətin, millətin maraqlarını heçə sayan Ə.Kərimli-C.Həsənli kimi anti-milli ünsürlərin şər və böhtanlarını bağışlamayacaq və sərt ölçü götürmələrini, cəmiyyətdən təcrid olunmalarını tələb edəcək. Və bu haqq-hesab isə çox ağır olacaq.

# Azərbaycan insan hüquqlarının müdafiəsi sahəsində dünyada öndə durur

***BMT-nin İnsan Huquqları Şurasının qətnaməsinə uyğun olaraq yaradılan Universal Dovri İcmal uzrə İşci Qrupu arasında ozunun sessiyalarını kecirmişdir. İclasda Azərbaycan tərəfinin məruzəsi nəzərdən kecirilmişdir.***

Azərbaycan numayəndə heyətinə Xarici İşlər nazirinin muavini Xələf Xələfov başcılıq etmişdir. İclasda İşci Qrupu Azərbaycan ilə bağlı hesabatı qəbul etmişdir. İnsan Huquqları Şurası Azərbaycan ilə bağlı icmala vasitəcilik etmək ucun məruzəcilərdən ibarət ucluyu secdi: Ekvador, Sloveniya və Birləşmiş Ərəb Əmirlikləri. Ermənistan, Banqladeş, Belcika, Braziliya, Almaniya, Lixtenşteyn, Portuqaliya, Sloveniya, İspaniya, İsvec, Boyuk Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Amerika Birləşmiş Ştatları və Uruqvay tərəfindən əvvəlcədən hazırlanmış sualların siyahısı ucluk vasitəsilə Azərbaycana təqdim olunmuşdur. Bu suallar universal dovri icmalın internet səhifəsində dərc olunmuşdur.

Azərbaycan qeyd etmişdir ki, universal dovri icmal insan huquqlarının və əsas azadlıqlarının mudafiəsi, dialoqun təşviqi və təcrubənin boluşdurulməsi istiqamətində Azərbaycanda gorulən işlər və həyata kecirilən tədbirlər ilə bağlı tam şəkildə məlumatın verilməsinə imkan yaratmaqla olkənin ucuncu milli məruzəsinin nəzərdən kecirilməsi ucun effektiv formata malik olmuşdur.

Azərbaycan insan huquqları sahəsində əsas beynəlxalq huquqi sənədlərə tərəfdar cıxmış və onların yerinə yetirilməsinə dair hesabatları BMT-nin sazişlərin icrasına nəzarət uzrə muvafiq orqanlarına muntəzəm qaydada təqdim etmişdir. BMT-nin İnsan Huquqları Şurasının otuz beşinci sessiyasında BMT-nin İnsan Huquqları uzrə Ali Komissarı hesabatları vaxtlı-vaxtında verən 34 olkə icərisində Azərbaycanın da adını cəkmişdir. Azərbaycan, həmcinin universal dovri icmalın ilk iki dovru uzrə aralıq hesabatları təqdim edən 15 olkə sırasında yer almışdır. Azərbaycan xususi prosedurlar uzrə butun mandat sahiblərinə xususi dəvət gondərərək Uzv Dovlətlərlə əməkdaşlığın və dialoqun qurulmasında onların rolunun vacibliyini təsdiqləmişdir.

İnsan huquqlarının və əsas azadlıqların mudafiəsinin daha da gucləndirilməsi, dovlət idarəciliyi uzrə səmərəli və cevik mexanizmin formalaşdırılması və iqtisadi islahatların effektivliyinin təmin edilməsi məqsədilə 2016-cı ildə kecirilən referendumun nəticəsində Konstitusiyaya duzəlişlər edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi barədə sərəncam imzalamışdır. Sərəncam cəza siyasətinin humanistləşdirilməsi ilə penitensiar sistemi inkişaf etdirmək məqsədi daşımış və onun imzalanması nəticəsində cinayət qanunvericiliyi ilə bağlı siyasətin liberallaşdırılması, eləcə də, həbslərin və azadlıqdan məhrumetmə hallarınınının məhdudlaşdırılması və bir sıra cinayətlərin dekriminallaşdırılması istiqamətində institusional, qanunverici və praktik tədbirlərin həyata kecirilməsi təmin edilmişdir.

Hesabat dovrundə Azərbaycanda, həmcinin əfv və amnistiya təsisatları da geniş tətbiq olunmuşdur. Umumilikdə Prezident 9 əfv aktı imzalamış və nəticədə 1378 məhkum əfv edilmişdir, Milli Məclisin təsdiq etdiyi iki amnistiya aktı isə 21000 nəfər barəsində tətbiq edilmişdir.

Huquq sahəsində fəaliyyətin inkişafını dəstəkləmək məqsədilə 22 fevral 2018-ci il tarixində olkə Prezidenti "Vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" sərəncam imzalamışdır. Sərəncamda butun olkə uzrə vəkil təşkilatlarının madditexniki təminatının yaxşılaşdırılması, Vəkillər Kollegiyası tərəfindən muntəzəm qaydada imtahanların kecirilməsi ilə yeni uzvlərin qəbulu və gostərilən huquqi xidmətlərin keyfiyyətinin daim yuksəldilməsi məqsədilə vəkillərin peşə hazırlığının və ixtisasının artırılması ilə bağlı zəruri tədbirlərin gorulməsi nəzərdə tutulmuşdur.

Korrupsiyaya qarşı mubarizə Hokumətin başlıca prioritetlərindən biri olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli Sərəncamı ilə "Acıq hokumətin təşviqinə dair 2016-2018-ci illər ucun Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Planda korrupsiyanın qarşısının alınması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, korrupsiyaya qarşı mubarizə məqsədilə vətəndaşlar arasında ictimai maarifləndirmə tədbirlərinin kecirilməsi və korrupsiya cinayətlərinin torədilməsi faktının subutuna dair təkliflərin hazırlanması nəzərdə tutulmuşdur.

Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar uzrə Dovlət Agentliyi vətəndaşlara ictimai xidmətlərin və sosial innovasiyaların səmərəli şəkildə təqdim edilməsi istiqamətində fəaliyyətini genişləndirməyə davam etdirmişdir. Agentlik 2013-cu ildən bu gunədək 20 milyondan cox muraciət qəbul etmiş və əhalinin 98-100 faiz məmnunluğuna nail olmuşdur. Bir sıra dovlətlər Agentliyin təcrubəsini oyrənməyə və bu modeli ozlərində tətbiq etməyə maraq gostərmişdirlər.

Olkədə 5000-dən cox KİV fəaliyyət gostərmişdir. Əhalinin təxminən 80 faizi informasiyanın oturulməsi və əldə olunması uzrə ən geniş yayılmış və ən praktik vasitə olan internetə maneəsiz şəkildə qoşulmaq imkanına malik olmuşdur. Azərbaycan Respublikasının Prezidenti yanında Kutləvi İnformasiya Vasitələrinin İnkişafına Dovlət Dəstəyi Fondu oz fəaliyyətini səmərəli şəkildə həyata kecirməyə davam etmişdir. Dovlət vətəndaş cəmiyyətinin numayəndələri ilə tərəfdaşlıq əlaqələri qurmuşdur. Azərbaycanda 500-u insan huquqlarının mudafiəsi sahəsində fəaliyyət gostərən 3254-dən cox qeyri-hokumət təşkilatı (QHT) dovlət qeydiyyatına alınmışdır. 2017-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hokumət Təşkilatlarına Dovlət Dəstəyi Şurası 3 milyon manatdan cox vəsait ayırmaqla QHT-lərə məxsus 484 layihəni maliyyələşdirmişdir.

Azərbaycan Respublikası Prezidenti tərəfindən tolerantlıq və qarşılıqlı anlaşmanın gucləndirilməsi və cəmiyyətdə ayrı-seckilik, ekstremizm və ksenofobiyanın qarşısının alınması istiqamətində beynəlxalq səylərin koordinasiyası ucun bir platforma kimi "Bakı Prosesi" adlanan Beynəlxalq Mədəniyyətlərarası Dialoq Forumu yaradılmışdır. Həmcinin, Heydər Əliyev Fondu olkədə multikulturalizm və tolerantlığın inkişafına boyuk tohfə vermişdir.

Hesabat dovrundə qəbul olunmuş sosial-iqtisadi inkişaf siyasətinə dair sənədlərdə, eyni zamanda "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası və 2016-cı ildə qəbul edilmiş milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları uzrə strateji yol xəritələrində nəzərdə tutulan tədbirlərin muvəffəqiyyətlə həyata kecirilməsi nəticəsində işsizliyin səviyyəsində nəzərəcarpan dərəcədə azalma muşahidə olunmuş, işsizlərin sosial mudafiəsi gucləndirilmiş, əmək bazarında vəziyyətin yaxşılaşması ucun əlverişli şərait yaradılmış və rəqabət imkanları təkmilləşdirilmişdir. Otən beş il ərzində umumi daxili məhsul (UDM) 1,1 dəfə artmış, eyni zamanda qeyri-neft sektorunda 2,2 dəfə, əhalinin gəlirlərində isə 1,4 dəfə artım muşahidə olunmuşdur. Bu dovr ərzində qeyri-neft sənayesində 2,2 dəfə, kənd təsərrufatı sektorunda 1,2 dəfə, ticarətdə 1,4 dəfə, turizm sahəsində 1,7 dəfə, nəqliyyat sektorunda 1,2 dəfə, kommunikasiya sektorunda isə 1,5 dəfə artım qeydə alınmışdır.

Azərbaycan "Dayanıqlı İnkişaf uzrə 2030-cu il Gundəliyi"ni dəstəkləmişdir. "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasında və milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları uzrə strateji yol xəritələrində nəzərdə tutulan prinsip və istiqamətlərin əksəriyyəti 2030-cu ilin Gundəliyi ilə oxşarlıq təşkil etmişdir.

2016-cı ildə Dayanıqlı İnkişaf uzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır. Azərbaycan Hokuməti qacqınların və məcburi kockunlərin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq və onların oz ana yurdlarına təhlukəsiz şəkildə qayıtmaq huququnun gələcəkdə həyata kecirilməsini nəzərdə saxlamaqla cəmiyyətə inteqrasiyalarına komək etmək məqsədilə bir sıra kompleks tədbirlər həyata kecirməyə davam etmişdir.

Qacqınların və məcburi kockunlərin sosial mudafiəsini təmin etmək məqsədilə otən 24 il ərzində budcədən orta hesabla 6.6 milyard manat vəsait ayrılmışdır. Sahibkarlığa Komək Milli Fondu vasitəsilə təxminən 2000 nəfər məcburi kockunə sahibkarlıq fəaliyyətini maliyyələşdirmək ucun umumilikdə 44 milyon manat guzəştli kredit verilmişdir. Bunun nəticəsində qacqınlar və məcburi kockunlər arasında yoxsulluğun səviyyəsi 75 faizdən 12 faizə qədər azalmışdır.

Məcburi kockunlər kommunal xidmət xərclərini və dovlət ali və orta təhsil muəssisələri uzrə təhsil haqlarını odəməkdən azad olunmuşdurlar. Dağlıq Qarabağ regionu və onun ətrafındakı yeddi rayon daxil olmaqla Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğalı olkədə insan huquqlarının tam şəkildə reallaşdırılması ilə bağlı əsas maneələrdən biri olmuşdur. Silahlı hucumlar zamanı Ermənistan beynəlxalq humanitar huququn tələblərini pozmuş, eyni zamanda Azərbaycan vətəndaşlarını, girov goturulmuş şəxsləri və muharibə əsirlərini məhkəməsiz-istintaqsız edam etmişdir.

**Vahid Ömərov**
**Fəlsəfə üzrə fəlsəfə doktoru,dosent**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il
yanvarın 11-dən çıxır

# SƏS

18 aprel

Son səhifə

# Dünyada koronavirusa yoluxanların sayı 2,2 milyona yaxınlaşır

***Ötən sutka ərzində dünyada 76 mindən çox insan koronavirusa yoluxub. Bu, daha əvvəlki günlə müqayisədə 6 min çoxdur. Eləcə də ölənlərin sayı təxminən 8 minə çatıb ki, bu da əvvəlki günün göstəricisindən yüksəkdir.***




Xezerxeber.az TASS informasiya agentliyinə xəbər verir ki, bu barədə ÜST məlumat yayıb. Aprelin 16-na olan vəziyyətə görə, dünyada koronavirusa yoluxanların sayı 1 milyon 991 min 562-yə, ölənlərin sayı 130 min 885-ə çatıb. Sutka ərzində dünyada yoluxanların sayı 76 min 647, ölənlərin sayı 7 min 875 olub. Daha çox yoluxma və ölüm halları Avropada qeydə alınıb: 1 milyon 13 min 93 nəfər yoluxub və 89 min 317 nəfər ölüb. Avropada sutka ərzində yoluxanların sayı 35 min 497-yə, ölənlərin sayı 4 min 710-a çatıb.

Şimali və Cənubi Amerikada ümumilikdə 707 min 121 insan yoluxub, 30 min 245 nəfər ölüb. Bölgədə sutka ərzində 33 min 760 yoluxma, 2 min 909 ölüm faktı qeydə alınıb.

Çin, Koreya Respublikası və Yaponiyanın daxil olduğu Qərbi-Sakit okean regionunda ötən gün 125 min 571 nəfər yoluxub və 4 min 239 nəfər ölüb.

ÜST-nin ölkələr üzrə dərc etdiyi cədvəldə daha çox xəstələnmə halı ABŞ-da qeydə alınıb - 604 070. Sonrakı yerlərdə İspaniya (177 633), İtaliya (165 155), Almaniya (130 450), Fransa (105 155), Böyük Britaniya (98 480), Çin (83 797), İran (76 389), Türkiyə (69 392) və Belçika (33 573) gəlir.

Yeni növ koronavirusun yaratdığı xəstəlik 2019-cu ilin sonunda Mərkəzi Çində qeydə alınıb və tezliklə əksər ölkələrə yayılıb. ÜST bunu pandemiya kimi tanıyıb.

## "Bavariya"lı futbolçu karantində özünə yeni sevgili tapdı



Futbol üzrə Almaniya milli komandasının və "Bavariya" klubunun hücumçusu Serj Qnabri karantin günlərində özünə yeni sevgili tapıb.

"The Sun" xəbər verir ki, əslən Kot-d'İvuardan olan 24 yaşlı futbolçu özündən bir yaş kiçik isveçrəli model Sandra Cerslə sevgi münasibəti qurub. Qəzet yazır ki, cütlük üç həftədir görüşür və S.Cers Pasxa bayramını qeyd etmək üçün Münhenə gəlib.

## Aralıq dənizi pəhrizi beyinin qocalmasının qarşısını alır



Aralıq dənizi pəhrizi beyinin fəaliyyətini yaxşılaşdırır və onu qocalmaqdan qoruyur.

"Alzheimer's & Dementia" jurnalında dərc edilən məqaləyə əsasən, alimlər bu pəhrizin doqquz komponentinin (müxtəlif meyvələr, tərəvəzlər, buğda, qoz, lobya, balıq və zeytun yağı) beyinə təsirini araşdırıblar.

Bundan əlavə, qida rasionundan qırmızı ətin və spirtli içkilərin çıxarılması gözdən keçirilib. Araşdırmalara səkkiz minə yaxın könüllü qoşulub. Mütəxəssislər uzun illər boyu həmin insanları nəzarətdə saxlayıblar. Məlum olub ki, pəhrizə riayət edən insanlarda demək olar ki, beyin problemləri müşahidə olunmayıb.

## Xaçmazda həmkəndlisini güllələyən şəxs tutulub



Aprelin 16-da saat 23 radələrində Xaçmaz rayonunun Ağtala kəndi ərazisində kənd sakini F.Quliyevin münaqişə zəminində həmkəndlisi olan qayını M.Allahverdiyevə tüfəngdən atəş açıb bud nahiyəsinə xəsarət yetirməsi barədə Rayon Polis Şöbəsinə məlumat daxil olub.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, polis əməkdaşları tərəfindən hadisə yerinə baxış zamanı "TOZ-16" markalı tüfəng aşkar edilərək götürülüb. F.Quliyev saxlanılıb, onun sərxoş halda olması müəyyən edilib. Faktla bağlı araşdırma aparılır.

## Bakıda itkin düşən 12 yaşlı qız tapılıb



Bakıda itkin düşən 12 yaşlı qız tapılıb. Sabunçu rayon Polis İdarəsinin 12 Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində itkin düşən 2008-ci ildə anadan olmuş Miroşniçenko Sima Qriqoriyevna sağ-salamat tapılaraq ailəsinə təhvil verilib.

## "Yuventus" qoca Buffondan əl çəkmir...




"Yuventus"un qapıçısı Canluici Buffon klubunun yeni müqavilə təklifini qəbul edib. Bu barədə İtaliyanın nüfuzlu "Tuttosport" nəşri xəbər yayıb. Məlumatda deyilir ki, tərəflər 2020-ci ilin iyununda başa çatacaq müqavilənin müddətini daha 1 il uzadılması ilə bağlı razılığa gəlib. Buffonun yaxın vaxtlarda rəsmi müqaviləyə imza atacağı gözlənilir. Qeyd edək ki, Buffon bu mövsüm 11 matçda 9 qol buraxıb.

## "Çelsi" onu satmaq fikrindən daşındı



"Çelsi" futbolçusu Nqolo Kante ilə bağlı qərarını dəyişib.

Qol.az Britaniya mətbuatına istinadən xəbər verir ki, London klubu fransalı yarımmüdafiəçi ilə "Real", "Barselona" PSJ və "Yuventus"un maraqlanmasına baxmayaraq, onu satmamaq qərarına gəlib. Qeyd edək ki, bundan əvvəl Kantenin "Çelsi"də qalmaq istədiyini rəhbərliyi bildirdiyi yazılmışdı. London klubu onu ən azı 70 milyon avroya satmağı planlaşdırırdı.

**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**